# AZƏRBAYCAN DİLİ

tədris dili

DƏRSLİK

2




2-ci hissə

LAYİHƏ





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

Ülkər Nurullayeva
İradə Bayramova
Aysel Xanalıyeva
Könül Məhyəddinova

# AZƏRBAYCAN DİLİ 2

(tədris dili)

Ümumtəhsil məktəblərinin
2-ci sinfi üçün Azərbaycan dili fənni üzrə

## DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
artitrm2017@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!



2-ci hissə

LAYİHƏ

# Mündəricat

## 5 NAĞILLAR ALƏMİNDƏ


| Fəsillər | səhifə |
|---|---|
| 1 • NAĞIL OBRAZLARI | 6 |
| 2 • XƏYAL GÜCÜ | 17 |
| 3 • AĞIL DƏRYASI | 25 |
| Ümumiləşdirici təkrar | 32 |






## 6 VƏTƏNİM AZƏRBAYCAN


| Fəsillər | səhifə |
|---|---|
| 1 • VƏTƏN SEVGİSİ | 34 |
| 2 • MƏN SÜLHƏ SƏS VERİRƏM | 43 |
| 3 • MİLLİ DƏYƏRLƏRİMİZ | 49 |
| Ümumiləşdirici təkrar | 56 |


## 7 ÜNSİYYƏT NƏDİR


| Fəsillər | səhifə |
|---|---|
| 1 • QƏDİMDƏ İNFORMASİYA | 58 |
| 2 • ŞƏKİLLƏRDƏN HƏRFLƏRƏ | 67 |
| 3 • MÜASİR DÖVRDƏ İNFORMASİYA | 74 |
| Ümumiləşdirici təkrar | 80 |




## 8 ƏTRAF MÜHİT VƏ BİZ




| Fəsillər | səhifə |
|---|---|
| 1 • TƏBİƏT BİZƏ NƏ VERİR | 82 |
| 2 • TƏBİƏTİ QORUYAQ | 88 |
| 3 • YENİDƏN İSTİFADƏ | 96 |
| Ümumiləşdirici təkrar | 101 |

• 2-ci sinifdə keçilənlərin təkrarı . . . . 102


LAYİHƏ

# 5 NAĞILLAR ALƏMİNDƏ



**1 A Suallara cavab verin.**

- Sevdiyiniz nağıllar haqqında danışın.
- Nağılı oxumağı, yoxsa dinləməyi xoşlayırsınız? Cavabınızı əsaslandırın.
- Nağıllarda sizi ən çox cəlb edən nədir?







LAYİHƏ

# NAĞIL OBRAZLARI

**B** **Şəklə baxın və şeir parçasını oxuyun.**

*Sizə hardan deyim,*
*Azdanışanlardan,*
*Qaradinməzlərdən,*
*Yerəbaxanlardan,*
*Su kimi lal axanlardan,*
*Hürməyən itlərdən,*
*Ulamayan çaqqallardan,*
*Dəymədüşərlərdən,*
*Küsənlərdən...*



**C** **Şeirin hansı misraları sizə qəribə gəldi?**

**• Faydalı məsləhət •** **QARAVƏLLİ**

Nağılçılar nağıla başlamazdan əvvəl məzəli, ritmik bir mətn söyləyirlər. Bu mətn **qaravəlli** adlanır. Qaravəllini dinləyicilərin diqqətini cəlb etmək üçün söyləyirlər. Siz də qaravəllilər əzbərləyin və nağıl danışarkən onlardan istifadə edin.

**Ç** **"Uçan xalça" nağılını oxuyun. Mətndəki obrazların adlarını yazın.**

## UÇAN XALÇA

**I hissə** **1** Biri var idi, biri yox idi, bir nənənin Əhməd adlı nəvəsi var idi. Nənə corab toxuyub satar, pulu nəvəsinə verərdi ki, gedib çörək alsın.

Bir gün Əhməd bazara gedəndə gördü ki, bir iti döyürlər. O, çörəkpulunu verib iti aldı. Nənə Əhmədin çörəksiz qayıtmasından narazı qalsa da, bir söz demədi. Yenə bir cüt corab satıb pulunu nəvəsinə verdi. Bazara gələn Əhməd gördü ki, bir qəssab ət yemək istəyən pişiyi döyür. Çörəkpulunu verib pişiyi aldı. Həmin gün onlar ac-susuz yatdılar.

LAYİHƏ

Səhəri gün Əhməd heyvanları da götürüb meyvə yığmağa getdi. Az getdi, çox getdi, bir hündür dağın başına çatdı. Birdən qabağına üç div çıxdı. Elə qaçmaq istəyirdi ki, divlər onu saxladı:



**2** – Ey oğlan, qorxma. Əgər bizə kömək etsən, səninlə işimiz olmaz. Biz uçan xalça və sehrli üzük tapmışıq. Xalçanın üstündə otursan, səni istədiyin yerə aparar. Üzükdən nə dilək istəsən, yerinə yetirər. Bu iki əşyanı üç div arasında bölə bilmirik. Onları bölüşdürməkdə bizə kömək elə.

Əhməd bir qədər fikirləşib dedi:

– Yaxşı, siz həmin əşyaları mənim yanımda qoyun. Mən dağın başından üç daş atım, siz dalınca qaçın. Kim daşı götürüb birinci gəlsə, xalça onun olsun. İkinci gələn üzüyü götürsün. Axırda gələn də öz bəxtindən küssün.



**3** Divlər razılaşdılar. Əhməd üç yekə daşı dağ aşağı yuvarladı. Divlər daşların ardınca qaçdılar. Divlər aralanan kimi Əhməd üzüyü barmağına taxdı, iti, pişiyi də xalçanın üstündə oturdub dedi:

– Ey sehrli xalça, bizi öz evimizə apar.

Xalça o dəqiqə göyə qalxıb onları evlərinə gətirdi. Əhməd evlərinə çatan kimi üzünü üzüyə tutub dedi:

– Ey sehrli üzük, səndən elə bir imarət istəyirəm ki, bir kərpici qızıldan, bir kərpici gümüşdən olsun. Özü də o qədər hündür olsun ki, başı buludlara çatsın.

Əhməd bir də gördü ki, onun istədiyindən də qəşəng bir imarət hazır oldu.

**• Söz boğçası •**

- qəssab
- dilək
- bəxtindən küsmək
- yuvarlamaq
- imarət

LAYİHƏ

**D** **Aşağıdakı başlıqları nağılın hansı hissələrinə aid etmək olar?**

a) Qəribə tanışlıq b) Axmaq divlər c) Xeyirxahlıq

## E Qruplarla iş

**Aşağıdakı fikirlərin hansı ilə razısınız? Fikirlərinizi izah edin.**

A) Çörəkpulunu verib heyvanları almaq düzgün hərəkət idi?

***1-ci qrup***: *düzgün hərəkət idi.*
***2-ci qrup***: *səhv hərəkət idi.*

B) Divləri aldadıb xalça ilə üzüyü ələ keçirmək yaxşı hərəkət idi?

***3-cü qrup***: *yaxşı hərəkət idi.*
***4-cü qrup***: *pis hərəkət idi.*

**2 A** **Nağılın davamını oxuyun. Obrazların adlarını dəftərinizə qeyd edin.**

**II hissə**

İndi sizə kimdən deyim, kimdən danışım, qonşu ölkənin padşahından. Padşaha xəbər çatdı ki, qonşu ölkədə bir ev var ki, padşahın sarayı onun yanında tövləyə oxşayır. Padşah əmr etdi ki, bir küpəgirən qarı tapıb gətirsinlər. Padşahın adamları dünyanın ən hiyləgər qarısını tapıb gətirdilər. Qarı, nə qarı, üzünə baxanda adamı vahimə basır: alt dodağı yer süpürür, üst dodağı göy. Padşah küpəgirən qarıya baxıb dedi:

– Gərək gedib həmin evi tapasan, sirrini öyrənəsən. Elə edəsən ki, mənim olsun.



Qarı mindi küpün içinə, qalxdı göyə. Hər yeri dövr elədi, Əhmədin evini tapdı. Kəndin kənarında yerə endi. Əhmədin evinin qabağına gəldi. Gördü ki, Əhmədin nənəsi pəncərədən baxır. Yalandan yerə yıxılıb başladı ufuldamağa. Əhmədin nənəsinin ona yazığı gəldi. Küpəgirən qarını evə gətirdi, ona çay-çörək verdi, gecə də evində qonaq elədi. Küpəgirən qarı yerini rahatlayıb söhbətə başladı:

– Nə gözəl eviniz var? Bunu necə tikmisiniz?

LAYİHƏ

– Bu bir sirdir, amma sən ağzıbütöv adama oxşayırsan, sənə deyə bilərəm. Nəvəmin sehrli üzüyü var. Hər nə istəsən, o dəqiqə hazır olur. Bu yaşıl xalça da sehrlidir. Üstündə oturub desən ki, məni filan yerə apar, o dəqiqə adamı həmin yerə çatdırır.

Gecə hamı şirin yuxuda ikən qarı oyandı. Əhmədin barmağındakı üzüyü asta-asta çıxardı. Sehrli xalçanın üstündə oturub dedi:

– Ey xalça, məni padşahımın yanına apar.

Qarının ağzından söz çıxan kimi xalça göyə qalxdı. Qarı gözünü yumub-açınca özünü padşahın yanında gördü. Üzünü sehrli üzüyə tutub dedi:

– Əhmədin imarəti padşahımın olsun!

**• Söz boğçası •**

- vahimə basmaq
- ağzıbütöv

**B** **Mətndən küpəgirən qarının təsvir edildiyi cümlələri seçin. Bu obrazın hərəkətlərinə münasibət bildirin.**

**• Bunları bilməliyik •** **MÜSBƏT VƏ MƏNFİ OBRAZLAR**

**NAĞIL OBRAZLARI**

| Müsbət obrazlar | Mənfi obrazlar |
|---|---|
| **Müsbət obrazlar** *(şahzadələr, gözəl qızlar, igidlər və s.)*<br>Xeyirxah işlər görürlər.<br>Zalımlarla mübarizə aparırlar. | **Mənfi obrazlar** *(küpəgirən qarı, div, əjdaha və s.)*<br>Qəhrəmanlara pislik edirlər.<br>Adətən, xarici görünüşləri qorxunc olur. |

Nağıllarda **sehrli qüvvələr** *də olur: sehrli üzük, uçan xalça, Zümrüd quşu.*
Onlar nağıl qəhrəmanlarına mənfi obrazlarla mübarizə aparmaqda kömək edirlər.

**C** **Oxuduğunuz nağılları xatırlayın. Oradakı nağıl qəhrəmanlarına münasibət bildirin. Aşağıdakı nümunədən istifadə edin.**

| Nağıl | Obraz | Mənfi, yoxsa müsbət | Əsaslandırma |
|---|---|---|---|
| Ağca və cırtdanlar | Kraliça | Mənfi | Ağcaya pislik etmək istəyir. |
| | | | |

LAYİHƏ

**3 A Şəklə əsasən nağılın davamını təxmin edin. Daha sonra nağılı oxuyun.**

**III hissə**

Əhməd yuxudan ayılıb gördü ki, nə xalça var, nə üzük, nə də ki qarı. Nənəsi ilə köhnə evlərində cırıq həsirin üstündə yatıblar. Daha nə etmək olardı? Əhmədlə nənəsi əvvəlki kimi corab toxuyub satmaqla dolandılar.



Bir gün Əhmədin iti pişiyə dedi:

– Əhməd bizi ölümdən qurtarıb, gərək biz də ona çətin gündə kömək edək. Üzüyü, xalçanı tapıb geri qaytaraq.

İtlə pişik üç gün, üç gecə yol getdilər. Axır ki, padşahın ölkəsinə çatdılar. Gəlib imarəti tapdılar. Gizlicə içəri keçdilər. Axtara-axtara gəlib padşahın otağına çıxdılar. Gördülər ki, padşah yatıb, nəfəs aldıqca ağzından işıq çıxır. Başa düşdülər ki, sehrli üzük padşahın dilinin altındadır. Uçan xalça da taxtın yanında yerə salınmışdı. Başladılar fikirləşməyə: necə eləsinlər ki, üzüyü padşahın ağzından çıxarsınlar?



LAYİHƏ

Elə bu vaxt pişik gördü ki, divarın dibindən bir siçan çıxır. Tez atılıb siçanı tutdu. Siçan pişiyə yalvardı ki, onu yeməsin. Pişik dedi:

– Bir şərtim var, yerinə yetirsən, səni buraxaram. Bax, padşahın ağzında bir üzük var. Gərək onu çıxarıb mənə verəsən.

**Sizcə, siçan üzüyü padşahın ağzından necə çıxara bilər?**

Siçan padşahın sinəsinə çıxıb yavaşca quyruğunun ucunu onun burnuna saldı. Padşah asqırdı, üzük ağzından çıxıb yerə düşdü.

İtlə pişik üzüyü götürdülər. Xalçanın üstündə oturub Əhmədin yanına qayıtdılar. Əhməd üzüyü barmağına taxıb imarətini geri istədi. Həmin gündən itlə pişik imarətin dörd bir tərəfini qorudular.

Əhməd nənəsinə dedi:

– Nənə, gördünmü, yaxşılıq itməz. Mən vaxtilə itlə pişiyə yaxşılıq eləmişəm, indi də onlar əvəzini çıxdılar.

**B** **“Uçan xalça” nağılı üzrə hekayə xəritəsi tərtib edin.**

**C** **“Uçan xalça” nağılına aid cümlələri oxuyun. Nöqtələrin yerinə uyğun obrazların adlarını yazmaqla cümlələri köçürün.**

*1. ... corab toxuyurdu.*
*2. ... it və pişiyi xilas etdi.*
*3. ... sehrli üzük və xalça tapmışdılar.*
*4. ... divarın dibindən çıxdı.*

• Bunları bilməliyik • CÜMLƏNİN ƏSASI




**Ç** **Cümlələri köçürün. Cümlənin əsasını (icraçını və hərəkəti) bildirən sözlərin altından xətt çəkin.**

*1. Padşah Əhmədin imarətini istədi.*
*2. Nənə pəncərədən baxırdı.*
*3. Siçan pişiyə yalvardı.*
*4. Küpəgirən qarı Əhmədin barmağındakı üzüyü çıxardı.*
*5. İtlə pişik üç gün, üç gecə yol getdilər.*

LAYİHƏ

**4 A** **Şəklə əsasən mətndə hansı nağıl obrazlarının iştirak etdiyini təxmin edin. Daha sonra nağılı oxuyun.**

## MƏLİKMƏMMƏD



**I hissə**

Hamam hamam içində,
Xəlbir saman içində.
Dəvə dəlləklik eylər
Köhnə hamam içində.
Qarışqa şıllaq atdı,
Dəvənin budu batdı.

Biri var idi, biri yox idi, bir padşahın bağında sehrli alma ağacı var idi. Kim onun meyvəsindən yesəydi, cavanlaşardı.

Bu ağac üç gündən bir bar verərdi. Padşah həmin gün sübh tezdən alma dərmək üçün bağa gedərdi. Amma baxardı ki, alma nə gəzir? Alma çoxdan dərilib. Kor-peşman geri qayıdardı.

Bir gün padşah oğlu Məlikməmmədi yanına çağırıb dedi:

– Belə də iş olar?! Mən padşah ola-ola bağımdakı almadan yeyə bilmirəm. Gərək almanı oğurlayanı tapasan.

Məlikməmməd ox-kamanını götürüb bağa yollandı. Alma ağacının keşiyini çəkməyə başladı. Gecə keçdi, sübhə yaxın bir nərilti, bir gurultu eşitdi ki, gəl görəsən. Bir də baxdı, bir div gəlir, boyu minarə kimi, adam baxanda bağrı yarılır. Elə bilirsən, dağ qopub gəlir. Məlikməmməd ağacın arxasında gizləndi.

– Aha, deməli, almanı oğurlayan div imiş, – deyə öz-özünə pıçıldadı.

Div yaxınlaşanda Məlikməmməd yayı çəkib oxu atdı. Ox divi yaraladı. Div nərə çəkə-çəkə qaçıb canını qurtardı.

Məlikməmməd almaları bir qaba yığıb atası üçün apardı. Padşah almaları görüb çox sevindi.

Məlikməmməd üzünü atasına tutub dedi:

– Ata, mən divi yaralamışam. Bilirəm ki, yenidən qayıdacaq. İzin ver, camaata zərər verməmiş mən onu tapım.

LAYİHƏ

Padşah xeyli düşündü. Oğlunu divlə döyüşə göndərmək istəmirdi. Lakin düşündü ki, div geri qayıdıb camaata zərər verər. Ona görə də fikrini dəyişdi. Oğlunu bir dəstə qoşunla yola saldı. Məlikməmməd altdan geyinib üstdən qıfıllandı, üstdən geyinib altdan qıfıllandı, divlə döyüşə getdi.

**• Söz boğçası •**
- bar
- sübh
- minarə
- ox-kaman
- keşik çəkmək
- bağrı yarılmaq
- qıfıllanmaq

**B** **Hadisələrin səbəbini müəyyənləşdirin. Cümlələri tamamlayın.**

*a) Padşah bağındakı almadan yeyə bilmirdi, çünki ...*
*b) Məlikməmməd ox-kamanını götürüb bağa yollandı ki, ...*
*c) Məlikməmməd yaralanmış divin ardınca getdi, çünki ...*

**C** **Nağıldan div obrazını təsvir edən cümlələri dəftərinizə yazın. Bir cümlə də özünüz əlavə edin.**

**Ç** **Söz boğçasından aşağıdakı sözlərə yaxınmənalı olan sözü seçin.**
*a) səhər   b) qorxmaq   c) bağlanmaq   ç) qorumaq*

**5 A** **Nağılın davamını oxuyun. Baş qəhrəmanın davranışlarına diqqət edin.**

**II hissə**

Məlikməmməd qoşunu ilə az getdi, üz getdi, dərə-təpə düz getdi. Divin ayaq izləri onu bir quyunun yanına gətirib çıxardı. Quyunun ağzına bir dəyirmandaşı qoyulmuşdu. Məlikməmməd bir dəfə güc verməklə daşı götürüb kənara atdı. Qoşundan bir igid irəli çıxıb Məlikməmmədə dedi:

– İzin ver, quyuya mən düşüm, sənə xəbər gətirim.

Həmin igidin belinə kəndir bağlayıb quyuya salladılar. Bir az keçməmiş quyudan səs eşidildi:

– Ay aman, yandım! Çəkin məni yuxarı!

Onu tez quyudan çıxardılar. Quyuya kimi salladılarsa, yarı yolda “yandım” deyə qışqırdı. Axırda Məlikməmməd kəndiri belinə bağlayıb dedi:

– Məni quyuya sallayın, amma nə qədər “yandım” desəm, ipi çəkməyin.

LAYİHƏ

Məlikməmmədi quyuya endirdilər. O, "yandım" deyə qışqırsa da, yuxarı çəkmədilər. Aşağı endikcə isti də azalırdı. Axır ki, quyunun dibinə çatdı. Ətrafa baxıb gördü ki, bir yol gedir. Həmin yol ilə gedib bir otağa çatdı. Otağın qapısını açdı, içində bir ayrı qapı gördü, o qapını da açıb başqa otağa girdi.

Beləcə, Məlikməmməd qırx qapı açdı. Qırxıncı otaqda gözəl bir qız əyləşmişdi. Div onun yanında yatırdı. Qız Məlikməmmədi görcək dedi:

– Ey cavan, kimsən? Qaç gizlən. Div yaralanıb, acıqlıdır.

Məlikməmməd dedi:

– Divdən qorxan divdən betər olsun. O oturub divin oyanmağını gözləməyə başladı.

Div yuxudan oyanıb dedi:

– Adam-badam iyi gəlir, yağlı badam iyi gəlir.

Məlikməmməd yerindən şir kimi atılıb divlə güləşməyə başladı. Bunlar qırx gün, qırx gecə güləşdilər. Axırda Məlikməmməd bir nərə çəkdi, divi qaldırıb yerə vurdu.

**• Söz boğçası •**

- dəyirmandaşı
- nərə çəkmək
- betər



**B** **Mətndə göy rənglə verilmiş cümlələrdən çıxış edərək aşağıdakı fikirləri əsaslandırın.**

*a) Məlikməmməd cəsurdur.*
*b) Məlikməmməd güclüdür.*
*c) Məlikməmməd dözümlüdür.*

**C** **Mətnə və göy rəngdə verilmiş suallara əsasən cümlələri genişləndirin.**

*a) Məlikməmməd (hara?) düşdü.*
*b) Div (necə?) yatırdı.*
*c) Məlikməmməd (neçə? nə?) açdı.*

LAYİHƏ

**6 A** **Şəklə əsasən mətndə hansı nağıl obrazlarının iştirak etdiyini təxmin edin. Daha sonra nağılın davamını oxuyun.**

**III hissə** Məlikməmməd divin canını aldıqdan sonra qızla birlikdə quyudan çıxmaq üçün yol axtardı.

Bir az gedəndən sonra onların qarşısına hündür bir ağac çıxdı. Baxdılar ki, ağaca bir əjdaha dırmaşır. Demə, bu ağacda Zümrüd quşunun yuvası var imiş. Əjdaha da onun balalarını yemək istəyirmiş. Məlikməmməd tez qılıncını çəkib əjdaha ilə vuruşdu. Zümrüd quşunun balalarını xilas etdi. Elə bu vaxt Zümrüd quşu özünü balalarına yetirdi. Üzünü Məlikməmmədə tutub dedi:

– Sən mənim balalarımı xilas etdin. Bu yaxşılığın əvəzində nə istəyirsən?

– Bizə kömək elə, işıqlı dünyaya çıxaq.

Quş onları qanadlarının üstünə alıb havaya qalxdı. Bir xeyli gedib, nəhayət, işıqlı dünyaya çatdılar. Zümrüd quşu onları yerə endirdi. Lələklərindən birini Məlikməmmədə verib dedi:

– Çətinə düşən kimi bu lələyi yandır. Həmin an sənə köməyə gələrəm.

Məlikməmməd Zümrüd quşu ilə sağollaşıb saraya yollandı. Padşah oğlunu görüb çox sevindi. Məlikməmmədlə gözəl qıza qırx gün, qırx gecə toy elədi.



**• Söz boğçası •**

- işıqlı dünya
- lələk

**B** **"Məlikməmməd" nağılında hansı obrazlar iştirak edir? Onlardan hansı müsbət, hansı mənfi obrazdır?**

LAYİHƏ

**C** **Cümlələrdə söz sırasını sualların ardıcıllığına uyğun bərpa edin.**

| | | | | |
|---|---|---|---|---|
| *1) qırx Məlikməmməd açdı qapı* | Kim? | Necə? | Nə? | Nə etdi? |
| *2) güləşdi divlə Məlikməmməd* | Kim? | Kim ilə? | | Nə etdi? |
| *3) dırmaşdı ağaca Əjdaha* | Kim? | Haraya? | | Nə etdi? |

**Ç** **Cümlələrin mətnin tərkib hissələrinə uyğunluğunu müəyyən edin.**

***a) Giriş*** ***b) Əsas hissə*** ***c) Sonluq***

| | |
|---|---|
| *1) Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl söyləyənin...* | *a b c* |
| *2) Biri var idi, biri yox idi...* | *a b c* |
| *3) Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər.* | *a b c* |
| *4) Qırx gün, qırx gecə toy etdilər.* | *a b c* |
| *5) Altdan geyinib üstdən qıfıllandı, üstdən geyinib altdan qıfıllandı...* | *a b c* |

**D** **Şəkillər əsasında aşağıdakı ardıcıllığa uyğun mətn qurub yazın. Ç tapşırığındakı cümlələrdən mətnin uyğun hissələrində istifadə edin.**

**Giriş**: 1-ci şəkil **Əsas hissə**: 2-ci və 3-cü şəkillər **Sonluq**: 4-cü şəkil

1


2


3


4


LAYİHƏ

# XƏYAL GÜCÜ

**1 A** **Nağıllarda rast gəldiyiniz xəyali obrazlar və hadisələr nə üçün bu qədər maraqlıdır? Siz də qeyri-adi əhvalatlar uydurmağı sevirsinizmi?**

**B** **Mətni oxuyun. Obrazların uydurduğu əhvalatlara diqqət edin.**

## XƏYALPƏRƏSTLƏR

**I hissə**

Mişa və Saşa adlı iki dost var idi. Onlar birlikdə əylənməyi sevirdilər. Həmişə nə haqdasa söhbət edirdilər. Özü də onların söhbəti qeyri-adi olurdu. Elə bil yarışa girmişdilər: kim daha çox uyduracaq.

Bu gün də Mişa adəti üzrə söhbətə başladı:

– Bir dəfə dənizdə üzürdüm, akula mənə hücum etdi. Mən ona bir yumruq vurdum, paart... O da mənim başımdan dişlədi.

– Uydurursan! Bax başın yerindədir. Bəs deyirsən akula dişləyib?

Mişa gülüb dedi:

– Yerinə yeni baş böyüyüb.

“Hə, yaxşı uydurdu”, – deyə Saşa düşündü. İndi növbə onun idi.

– Bir dəfə küçə ilə gedirdim. Hər tərəf maşınla dolu idi. Birdən ayağımın altında bir avtobus qaldı, əzik-üzük oldu.

– Ha-ha-ha! Əcəb uydurdun! Heç inandırıcı deyil. Sən avtobusu necə əzə bilərsən?

– Əzərəm, axı o, oyuncaq avtobus idi! – deyə Saşa əllərini bir-birinə vurub qəhqəhə çəkdi.







**• Söz boxçası •**
- xəyalpərəst
- uydurmaq
- qəhqəhə çəkmək

LAYİHƏ

Mişa çox düşünmədi:

– Bilirsən, bir dəfə mən Aya uçmuşdum.

– Aya? Nə ilə uçmuşdun?

– Əlbəttə, raketlə. Aya nə ilə uçurlar? Guya özün bilmirsən?



– Yaxşı, sən Ayda nə gördün?

– Heç nə.

– Bax görürsən? Uydurursan. Aya uçmusan, amma heç nə görməmisən? Niyə?

– Axı gecə idi. Hər tərəf qaranlıq idi. Bir də mən yuxuda uçmuşam. Sonra da geri qayıtmışam.

**C Rollu oyun** **Mətndə göy və qırmızı rənglə verilmiş cümlələrin hansı obraza aid olduğunu müəyyən edin. Mimika və jestlərin köməyi ilə həmin hissəni rollar üzrə danışın.**

**2 A Mətnin davamını oxuyun. Obrazların davranışına diqqət edin.**

**II hissə**

Söhbətin şirin yerində İqor onlara yaxınlaşdı. Başını yelləyib dedi:

– Heç yaxşı iş görmürsünüz. Adam yalan danışmaz.

– Biz pis iş görmürük ki! Heç kimi aldatmırıq, sadəcə, uydururuq. Elə bil nağıl danışırıq.

– Nağıl?! Əcəb məşğələ tapmısınız.

– Sən elə bilirsən nağıl uydurmaq asandır? Birini uydur görək.

İqor çox düşündü:

– Eeeee... Aaaaa... Bir dəfə məni it dişləyib. Baxın, izi də qalıb.

Uşaqlar İqorun qoluna baxıb dedilər:

– Doğrudan ha, izi də qalıb. Bu ki nağıl olmadı.

İqor mızıldandı:

– Siz boş-boşuna uydurursunuz. Bu uydurmaların heç kimə faydası yoxdur. Mən isə elə uydururam ki, mənə xeyri dəysin.

– Necə yəni xeyri dəysin?

– Dünən atamla anam evdə yox idi, İra da yatmışdı. Mən bir qab mürəbbəni yedim. Anam soruşanda dedim ki, İra yeyib. Bax, mən indi buradayam. İra isə cəzalıdır, oynamağa çıxa bilməz.

– Necə? Sənin əvəzinə balaca bacın cəza çəkir? ...→

LAYİHƏ

Saşa və Mişa İraya baş çəkmək istədilər. Yolüstü dondurma almaq qərarına gəldilər. Pulları bir dondurmaya çatdı. İqorgilin evinə çatanda İra pəncərədən baxırdı. Onun kefi yox idi. Mişa dondurmanı ona uzatdı:

– Al, sənin üçün almışıq.

– Bəs siz? Özünüz yemək istəmirsiniz?

– Biz çox yemişik, düz bir vedrə.

İra gülümsünüb dedi:

– Siz həmişə uydurursunuz. Bir vedrə dondurma yemək olmaz, boğazınız ağrıyar.

Saşa əli ilə göstərib dedi:

– Olar, bizim vedrəmiz çox balaca idi, bax bu boyda.

Uşaqlar onun sözlərinə doyunca güldülər.

*Nikolay Nosov*





**B** **İqorun hərəkətinə münasibət bildirin. Mişa və Saşanın uydurmaları ilə İqorun uydurması arasında nə fərq var?**

**C** **Müəllimin oxuduğu “Yalançı çoban” mətnini dinləyin. Çoban obrazı ilə İqor obrazı arasında oxşarlığı müəyyənləşdirin.**

**Ç** **Aşağıdakı plan əsasında İqora məktub yazın. Ona səhv hərəkət etdiyini izah etməyə çalışın.**

*1. Salamlaşma*
*2. Özünü təqdimetmə*
*3. Məktubu yazmağın səbəbi*
*4. İqorun hərəkətinə münasibət*
*5. Məsləhətlər*
*6. Ümid və arzular*
*7. Sağollaşma*

**İqora məsləhət üçün aşağıdakı cümlələrdən istifadə edin.**

- *Səhvini etiraf etməyi bacar.*
- *Yalan üz qızardar.*
- *Gec-tez yalanın üstü açılacaq.*
- *Qorxaq adamlar yalan danışar.*
- *Yalan ayaq tutar, yeriməz.*

LAYİHƏ

**3 A Qruplarla iş** **Şəklə diqqətlə baxın. Təsəvvür edin ki, dondurmadan düzəldilmiş bir saraya düşmüsünüz. Plan əsasında nağıl uydurun.**

***Giriş:*** *Dondurma sarayın təsviri. Obrazların təsviri.*
***Əsas hissə****: Qəhrəmanların başına gələn hadisələr.*
***Sonluq****: Hadisələrin nəticəsi.*
*İstifadə üçün sözlər: dondurma, qaymaq, meyvə, şokolad, vafli*



**B** **Müəllimin oxuduğu "Dondurma saray" mətnini dinləyin. Uydurduğunuz nağıl ilə müqayisə edin.**

**4 A** **Mətni oxuyun. Suallara cavab verin.**

## MƏKTƏBDƏ BİR GÜN

1. **Hansı hadisə xoşunuza gəldi? Nə üçün?**
2. **Hansı hadisə xoşunuza gəlmədi? Nə üçün?**

O gün İlkin dərsə hazırlıqsız gəlmişdi. O öz-özünə düşündü: "Nə olaydı, görünməz olaydım. Müəllim məndən dərs soruşmayaydı".

Dərs başlandı. Müəllim uşaqların adını çakir, dərsə gəlməyənləri jurnalda qeyd edirdi. Öz adını eşidəndə İlkin yavaşca: "Buradayam", – deyə dilləndi. Uşaqlar ətrafa boylandılar.

– Görəsən, İlkinə nə olub ki, dərsə gəlməyib? – deyə müəllim jurnalda nə isə qeyd etdi.

...→

LAYİHƏ

İlkin sevincindən atılıb-düşdü: “Oho! Deyəsən, mən, doğrudan da, görünməz olmuşam”. O, sinifdə gəzib qızlardan birinin saçını dartdı. Başqa birinin qələmini yerə atdı. Sinfə çaxnaşma düşdü. Hamı bir-birini günahlandırıb müəllimə şikayət edirdi.

İlkin o ki var dəcəllik etdi. Onu nə görür, nə də eşidirdilər. Bəli, indi İlkin tam sərbəst idi. İstədiyini edə bilərdi.



**• Söz boğçası •**

- çaxnaşma
- dəcəllik
- ödəmək

O, məktəbdən çıxıb yaxındakı mağazaya getdi. Bir dondurma götürüb satıcıya yaxınlaşdı. Pulu ona uzadıb dedi:

– Zəhmət olmasa, dondurmanın pulunu çıxın.

Satıcı ona fikir vermirdi. Öz işində idi.

İlkin özünü itirdi. Nə edəcəyini bilmirdi. Öz-özünə düşündü: “Dondurmanı götürüb pulunu ödəmədən gedim? Yox, yaxşı deyil. Axı bu, oğurluq sayılır. Nə olsun ki, məni heç kim görmür”. O, dondurmanı yerinə qoyub mağazadan çıxdı.

İlkin məktəbə qayıtdı. Dərslər artıq qurtarmışdı. O, dostları ilə oynamaq istədi. Amma heç kim İlkini görmür, ona fikir vermirdi. O, məyus halda evə getdi. Mətbəxdə anasına yaxınlaşdı. Anası isə ona fikir vermədən yemək bişirirdi.

İlkin ağlamağa başladı: “Mən daha görünməz olmaq istəmirəm. İstəyirəm ki, anam məni görsün, yoldaşlarım mənimlə oynasın, müəllim məndən dərsi soruşsun...”

*Canni Rodarinin “Görünməz Tonino” hekayəsi əsasında*

**B** **Sizcə, İlkinin taleyi necə olacaq? Hekayəni davam etdirin.**

**C** **Oxuyun. Rəngli sözlərdən birini seçib cümlələri tamamlayın.**

*1. Mənim fikrimcə, “Məktəbdə bir gün” hekayəsi maraqlıdır/maraqlı deyil, çünki ...*
*2. Düşünürəm ki, gözəgörünməz olmaq yaxşıdır/yaxşı deyil, çünki ...*
*3. Mətndəki hadisələr məni təəccübləndirdi/təəccübləndirmədi, çünki ...*

LAYİHƏ

• Bunları bilməliyik • RƏY

- **Rəy** – əsər haqqında fikir, münasibət ifadə edən yazıdır.

• Nümunə •

| Sual | Nümunə |
| --- | --- |
| Rəy yazacağınız mətnin adı nədir? Müəllifi kimdir? | ***Rus yazıçısı Nosovun “Xəyalpərəstlər” əsəri haqqında RƏY*** |
| Oxuduğunuz mətndə nədən danışılır? | *Mətndə uydurmağı sevən Saşa və Mişa adlı iki dostdan danışılır.* |
| Hansı hadisə (obraz) xoşunuza gəldi? Nə üçün? | *Saşa və Mişanın uydurduğu hadisələri çox bəyəndim. Çox gülməli idi.* |
| Hansı hadisə (obraz) xoşunuza gəlmədi? Nə üçün? | *İqorun yalan danışmağı xoşuma gəlmədi. Onun yalançılığına görə balaca bacısı cəzalandı.* |
| Bu mətni neçə ulduzla qiymətləndirirsiniz? | *Əsərə verdiyim qiymət:* ★★★★☆ |

**Ç Qruplarla iş** **Oxuduğunuz hər hansı bir mətn haqqında rəy yazın.**

*1-ci qrup: Sehrli xalça* *2-ci qrup: Məlikməmmədin nağılı*
*3-cü qrup: Yalançı çoban* *4-cü qrup: Məktəbdə bir gün*

**5 A Mətni oxuyun. Xəyali və həqiqi hadisələri fərqləndirin.**

## ALİSA MÖCÜZƏLƏR DİYARINDA

İsti yay günü idi. Alisa bacısı ilə ağacın altında oturub dincəlirdi. Birdən yaxınlıqdan qaça-qaça bir dovşan keçdi. O dayanmadan deyirdi:

– Aman Allah, mən gecikirəm.

Bu, Alisaya çox maraqlı gəldi. Dovşan yuvasına girən kimi Alisa da onun dalınca düşdü. Qarşısına geniş bir zal çıxdı. ...→

LAYİHƏ

...→ Zalın qapısının açar yerindən baxanda gözəl bir bağ gördü. "Kaş mən indi o bağda olaydım!" – deyə Alisa düşündü. Amma qapı bağlı idi. Həm də o qədər kiçik idi ki, Alisa oradan keçə bilməzdi.

O, ətrafa boylandı. Kənardakı masanın üstünə balaca qızıl açar və bir də şüşə qoyulmuşdu. Şüşənin üstündə "İç məni!" yazılmışdı. Alisa ondan bir azca içdi. Sürətlə balacalaşmağa başladı. İndi o qədər balaca idi ki, əli stola çatmırdı...



**B** **Alisa hansı təhlükəsizlik qaydasını pozmuşdu?**

**C** **Mətndən hansı suallara cavab tapmaq mümkün deyil?**

*1. Alisa hansı ağacın altında oturmuşdu?*
*2. Hadisələr hansı fəsildə baş vermişdi?*
*3. Alisa nə üçün bağa girə bilmədi?*
*4. Dovşanın adı nə idi?*
*5. Alisa nə üçün balacalaşmağa başladı?*

**Ç Qruplarla iş** **Sizcə, Alisa nə edəcək?**
**İllüstrasiyalara əsasən hadisələrin davamını təxmin edin.**






**D** **Suallar əsasında cümlələri genişləndirib yazın.**

*a) Necə? yay günü idi.*
*b) Alisa kimlə? harada? dincəlirdi.*
*c) Birdən qaça-qaça neçə? nə? keçdi.*
*ç) Hansı? masanın üzərində nələr? qoyulmuşdu.*

LAYİHƏ

## 6 A Mətni oxuyun. Mətndəki faktlara diqqət edin.

**NAĞILÇI ALİM**

Lüis Kerrol "Alisa möcüzələr diyarında"nağılının müəllifidir. Onun dostunun Alisa adlı balaca qızı var imiş. Bəzən atası Alisanı özü ilə işə apardı. Balaca qız Lüis ilə dostlaşmışdı. Lüis balaca dostuna maraqlı nağıllar danışırdı. Alim bu nağılları çox zaman özündən uydururdu. Həmin balaca qızcığaz Lüis Kerrolun məşhur nağılındakı Alisa idi.

Deyilənə görə, İngiltərə kraliçası bu nağılı həddən artıq bəyənmişdi. O, müəllifin bütün əsərlərini alıb gətirməyi əmr etmişdi. Lakin bu kitabların hamısının riyaziyyata aid olduğunu görəndə çox təəccüblənmişdi.

Axı haradan biləydi ki, bəyəndiyi nağılın müəllifi riyaziyyatçı alimdir. Lüis Kerrol uşaqlıqdan qeyri-adi riyazi bacarıqları ilə seçilirdi. Onun yaratdığı "Kerrol diaqramı"ndan indiyə kimi uğurla istifadə edilir. Bu diaqramda varlıqlar xüsusiyyətlərinə görə qruplaşdırılır.




*Alisa*



*Lüis Kerrol*

## B Şəkillərə baxaraq Kerrol diaqramını izah edin.

| | üçbucaq | üçbucaq olmayan |
|---|---|---|
| *mavi* |  |  |
| *mavi olmayan* |  |  |

## C Cümlələrin fakt, yoxsa münasibət bildirdiyini müəyyənləşdirin.

*1. Lüis Kerrol "Alisa möcüzələr diyarında" nağılının müəllifidir.*
*2. Məncə, "Alisa möcüzələr diyarında" çox maraqlı əsərdir.*
*3. Lüis "Kerrol diaqramı"nı yaradıb.*
*4. Alimlərin fikrincə, Kerrol diaqramı uşaqların çox xoşuna gəlir.*

## Ç Cütlərlə iş

**"Nağılçı alim" mətninə aid üç sual tərtib edin. Bir-birinizin suallarını yazılı şəkildə cavablandırın. Cavablarınızı yoxlayın.**

LAYİHƏ

•fəsil• 3

# AĞIL DƏRYASI

**1 A Ağıllı insanlar hansı xüsusiyyətlərə malik olur? Həyatdan misallar gətirməklə sxemi şərh edin.**




**B Nağılı oxuyun. Obrazların xarakterinə diqqət edin.**

## ÜÇ QARDAŞ

**I hissə**

Biri var idi, biri yox idi, bir kişinin üç oğlu var idi. O, oğullarına məsləhət verib deyərdi:

– Çalışın, hər şeyi dərindən öyrənəsiniz. Belə olsa, hər bir çətinliyin öhdəsindən gələrsiniz.

Bir gün qardaşlar yığışıb səfərə çıxdılar. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər. Gəlib bir şəhərə çatdılar. Dincəlmək üçün yolun kənarında oturdular. Elə bu vaxt gördülər ki, bir atlı gəlir. Həmin atlı ətrafa boylanır, nə isə axtarırdı.

Böyük qardaş atlıdan soruşdu:

– Deyəsən, nə isə axtarırsan?

– Bəli!

– Axtardığın dəvədirmi?

– Dəvədir.

Ortancıl qardaş söhbətə qarışdı:

– Dəvənin sol gözü kor idimi?

– Bəli! Kor idi.

Üçüncü qardaş soruşdu:

– Dəvənin yanında bir uşaq və bir nəfər də böyük adam var idimi?



LAYİHƏ

**II hissə**

Atlı qardaşlardan şübhələndi. Qəzəblə soruşdu:

– Aha, deməli, mənim dəvəm sizdədir. Deyin görüm, dəvəmi harada gizlətmisiniz? Ailəmin başına nə iş gəlib?

Qardaşlar and-aman elədilər ki, dəvəni görməyiblər, amma atlı onlara inanmadı. Səs-küyə camaat yığışdı. Qardaşları tutub padşahın yanına gətirdilər.

Padşah əhvalatı dinlədikdən sonra qardaşlara dedi:

– Siz dəvənin bütün əlamətlərini saymısınız, deməli, onu görmüsünüz. Bəs nə üçün günahınızı boynunuza almırsınız?

– Padşah sağ olsun, burada təəccüblü heç nə yoxdur. Biz uşaqlıqdan müşahidə etməyə, hər şeyi dərindən öyrənməyə alışmışıq. Ağlımızı-kamalımızı işlədib işin nə yerdə olduğunu anlayırıq.



**III hissə**

Padşah qardaşları yoxlamaq istədi. Vəzirin qulağına nə isə dedi. Qardaşlar gördülər ki, iki xidmətçi saraydan çıxıb padşahın nar bağına tərəf getdi. Bir azdan xidmətçilər əllərində sandıq içəri girdilər.

– Tapın görək, bu sandığın içində nə var? – deyə padşah soruşdu.

– Bu sandığın içində girdə bir şey var, – böyük qardaş dedi.

– O, nardır, – deyə ortancıl qardaş dilləndi.

– Həm də kaldır, – deyə kiçik qardaş əlavə etdi.

Sandıqda, həqiqətən də, bir dənə kal nar var idi. Padşahın heyrətləndiyini görən qardaşlardan biri belə izah etdi:

– Sandığı iki nəfər gətirsə də, yüngül olduğu bilinirdi. Onu yerə qoyanda hiss etdik ki, içində nə isə diyirləndi. Sandığı nar bağından gətirdikləri üçün düşündük ki, içindəki nardır. Bu fəsildə isə nar hələ yetişməz. Deməli, nar kaldır.

LAYİHƏ

**IV hissə**

Padşah qardaşlardan soruşdu:

– Bəs dəvə haqqındakı məlumatları necə bildiniz?

– Yol üstündə böyük ləpirdən bildik ki, buradan dəvə keçib. Bu ləpirin yanında iki ayaq izi var idi: biri böyük, digəri kiçik. Bu izlərdən anladıq ki, dəvənin yanında iki nəfər də olub. Yolun yalnız sağ tərəfindəki otlar yeyilmişdi. Deməli, dəvə sol tərəfi görməyib.

Padşah qardaşların ağlına heyran oldu. Onlara dedi:

– Bu gündən mənim sarayımda yaşayarsınız, ölkəmizin çətin günlərində ağlınız, zəkanızla mənə kömək edərsiniz.

**• Söz boğçası •**

- ləpir
- kamal
- girdə
- vəzir

**C** **“Üç qardaş” nağılını plan əsasında nəql edin.**

*1. Qardaşların səfəri.* *2. Qardaşların atlı ilə söhbəti.*
*3. Padşahın qardaşları sınağa çəkməsi.* *4. Padşahın təklifi.*

**Ç** **Verilmiş şeir parçasını oxuyun və “Üç qardaş” nağılındakı əsas fikirlə əlaqələndirin.**

*İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı.*

**D** **Obrazların xarakterini bildirən sözləri şəkillərlə uyğunlaşdırın.**

*1) səbirsiz 2) məntiqli 3) ədalətli*

a

b

c


**E** **Sözləri oxuyun. Səhvləri düzəldib yazın.**

*sayit, ayilə, təbiyət, şayir, radiyo, dayirə, Səyidə, müdafiyə, Nayilə, xayin, stadiyon*

**• Sözlərin yazılışı •**

| Doğru | Yanlış |
|---|---|
| daima | dayima |
| zəif | zəyif |

LAYİHƏ

**2 A** **Qardaşlar müşahidə etməklə hansı məlumatları əldə etdilər? Cədvələ əsasən danışın.**

| *Müşahidə etdilər* | *Nəticəyə gəldilər* |
|---|---|
| Yolda dəvə ləpirlərini | Buradan dəvə keçib. |
| Böyük və kiçik ayaq izlərini | |
| Yolun bir tərəfində yeyilmiş otları | |
| Sandığın içində diyirlənən əşyanı | |
| Xidmətçilərin nar bağına getməyini | |

**B Qruplarla iş** **Aşağıdakı şəkillərə diqqətlə baxın. Hər şəklə aid müşahidələrinizi ən azı 5 cümlə ilə ifadə edin.**



**C** **Aşağıda verilmiş hansı sözlər hərəkətin icra olunmadığını bildirir?**
*danışdı, danışmadı, bölməyəcək, böləcək, gülüb, gülməyib*

**• Bunları bilməliyik •** **HƏRƏKƏTİN TƏSDİQİ VƏ İNKARI**

*Hərəkət bildirən sözlər*

| *Təsdiq* | *İnkar* |
|---|---|
| *Hərəkətin icra olunduğunu bildirir.* | *Hərəkətin icra olunmadığını bildirir.* |
| • qaçdı • görür • deyəcək | • qaçmadı • görmür • deməyəcək |

**Ç** **Aşağıdakı hərəkət bildirən sözləri inkar formasında işlədin.**
*yazır, almaq, getdi, güləcək, bilmək, gəlir, güldü, çalışır, oxuyur, etmək*

LAYİHƏ

**3 A** **Nağılı oxuyun. Baş qəhrəmanın xarakteri ilə bağlı qeydlər edin.**

## AĞILLI UŞAQ

Biri var idi, biri yox idi, bir acgöz xan var idi. O, ətrafdakı kəndləri talan eləyir, əhalinin var-dövlətini əlindən alırdı. Lakin yaxınlıqda yerləşən bir kəndi ələ keçirə bilmirdi. Kəndin dünyagörmüş qocaları xanın planlarını alt-üst edirdilər.

Bir gün xan vəzir-vəkilini çağırıb kəndi tutmaq üçün məsləhət istədi. Vəzir dedi:

– Nə qədər ki bu kəndin ağsaqqalları var, oranı tutmaq çətin olacaq. Gəl əvvəlcə onları aradan götürək, sonrası asandır.



Xan hiyləyə əl atdı. Onun adamları bir-bir qocaların evinə gedib dedilər:

– Xan bir məsələdə çətinliyə düşüb. Məsləhətləşmək üçün sizi saraya çağırır.

Qocalar əlacsız saraya getdilər. Onları tutub zindana saldılar.

Xan çaparına üç alma verib dedi:

– Bu almaların biri builki, biri keçənilki, o biri isə inişilkidir. Almaları kəndin camaatına verin. Əgər onların neçə illik olduğunu bilməsələr, kəndi təslim etsinlər.

Çapar xanın şərtini camaata çatdırdı. Onlar çox düşünsələr də, almaların sirrini aça bilmədilər.

İndi isə sizə kimdən deyim, kimdən xəbər verim, bu kənddə yaşayan Mahmud adlı bir oğlandan. Mahmud balaca olsa da, ağılda, fərasətdə ona çatan yox idi. Həmin gecə Mahmud da xanın sualına cavab tapmaq üçün səhərəcən fikirləşdi. Səhəri gün xanla görüşmək üçün yola çıxdı.

Xan hüzuruna gələn adamın balaca bir uşaq olduğunu görüb təəccübləndi, amma bir söz demədi. ...→

LAYİHƏ

Mahmud bir qab su istədi. O, almaları suya saldı. Almanın biri o dəqiqə suyun dibinə çökdü. İkinci alma suyun ortasında qaldı, üçüncüsü isə suyun üzünə çıxdı. Mahmud almaları göstərib dedi:

– Builki alma çox şirəli olduğu üçün o dəqiqə qabın dibinə çökdü. Bu, keçənilki almadır: bir az şirəsi çəkilib deyə suyun ortasında qalıb. Üçüncü alma isə inişilin meyvəsidir, şirəsi tamam çəkilib, ona görə də suyun üzünə çıxıb.

Mahmudun düz cavabları qarşısında aciz qalan xan kəndin qocalarını zindandan azad elədi. Onların kəndlərinə toxunmayacağına söz verdi.

Beləliklə, balaca Mahmud öz ağlı və tədbiri ilə kəndlərini xilas etdi.



**• Söz boğçası •**

- talan etmək
- hüzuruna gəlmək
- aradan götürmək
- fərasət
- inişil
- təslim etmək
- çapar

**B** **Uyğunluğu təxmin etməklə siz də almaların sirrini açmağa çalışın.**

| | |
|---|---|
| *1. Ağır olduğuna görə suyun dibinə batdı.* | *a) Keçənilki idi.* |
| *2. Yüngül olduğuna görə suyun üzündə qaldı.* | *b) Builki idi.* |
| *3. Az şirəli olduğuna görə suyun ortasında qaldı.* | *c) İnişilki idi.* |

**4 A** **Mətni oxuyun. Obrazların adını və xarakterlərini qeyd edin.**

## İSGƏNDƏR

Qədim zamanlarda İsgəndər adlı məşhur bir sərkərdə varmış. O, bir çox ölkələri fəth edibmiş. Heç bir xalq onun hücumları qarşısında davam gətirə bilmirmiş. Cəsurluqda İsgəndərə tay olan yox imiş. Böyük sərkərdənin bir xasiyyəti də varmış: əgər and içib söz verdisə, bu sözünün üstündə mütləq durarmış.

Bir gün İsgəndər növbəti şəhəri mühasirəyə alır. Amma şəhərin camaatı ona tabe olmur. İsgəndər şəhərin yaxınlığında düşərgə qurub

LAYİHƏ

hücuma hazırlaşır. Döyüşçülərə tapşırır ki, şəhəri tutandan sonra daşı daş üstə qoymasınlar. O, şəhər camaatının əlindən çox hirsli imiş.

Bu şəhərdə vaxtilə İsgəndərə dərs demiş bir alim yaşayırmış. Öz şagirdini yaxşı tanıyan alim bilirdi ki, İsgəndər şəhəri yerləyeksan edəcək. Doğma şəhərini xilas etmək üçün o, İsgəndərin düşərgəsinə yollanır.

Uzaqdan keçmiş müəllimini görən İsgəndər onun gəlişinin məqsədini başa düşür və qışqırır:

– Müəllim, and içirəm ki, bu dəfə sənin dediklərin keçməyəcək, mən sənin xahişinə əməl etməyəcəyəm.

Alim İsgəndərə yaxınlaşıb yüksək səslə deyir:

– İsgəndər, səndən xahiş edirəm, bu şəhəri tut və yerləyeksan et.

Bu sözlərdən sonra İsgəndər öz ordusuna geri çəkilmək əmri verir.



**• Söz boğçası •**

- daşı daş üstə qoymamaq
- mühasirə
- sərkərdə
- tabe olmaq
- düşərgə
- yerləyeksan etmək

**B** **Nəyə görə alimin sözlərindən sonra İsgəndər şəhəri tutmadı?**

**C** **Aşağıdakı fikirləri əsaslandırın.**
**Bunun üçün mətndən uyğun cümlələri oxuyun.**

*1. İsgəndər çox inadkar və tərs idi.*
*2. İsgəndərin müəllimi hazırcavab insan idi.*
*3. İsgəndər verdiyi sözə həmişə əməl edirdi.*

**Ç** **Dinlədiyiniz mətndəki şair obrazı ilə İsgəndərin müəllimi obrazını müqayisə edin. Onların oxşar xüsusiyyətini müəyyən edin.**

**D** **Sizcə, qolugüclü adam öz xalqına daha çox xeyir verə bilər, yoxsa ağıllı adam? Oxuduğunuz mətndən nümunələr gətirməklə fikrinizi əsaslandırın.**

LAYİHƏ

# Ümumiləşdirici təkrar

**5 A** **Şeiri oxuyun. Sizə tanış olan nağıl qəhrəmanlarının adını qeyd edin.**

**NAĞIL OLMAQ İSTƏYİRƏM!**

Bir gün nağıl olsam əgər,
Bir nənənin ürəyindən
Az gedərəm, üz gedərəm,
Dərə, təpə düz gedərəm,
Balaların gözlərinə
Yuxu olub dolaram mən.
Dərələrdən sel kimi,
Təpələrdən yel kimi
Keçərəm hey, keçərəm.
Bir baxarsan, Məlikməmməd,
Bir də baxarsan, Keçələm.
Qoruyaram balaları
Zalımlardan, ac divlərdən,
Küpəgirən qarılardan.
Xəyallardan gerçəklərə
Yol açaram, iz salaram.
Göydən düşən almalardan
Hər nağılda pay alaram.

*Ləman Həsənli*



**B** **Şeiri oxuyarkən nağıllarda tez-tez işlədilən hansı ifadələrə rast gəldiniz?**

**C** **Şeirdəki obrazlar sizə hansı nağılları xatırlatdı? Həmin nağılların adlarını yazın.**

**Ç** **Şeirdəki obrazların adını yazın. Onlardan hansı mənfi, hansı müsbət obrazdır? Nağıllardan nümunələr gətirməklə əsaslandırın.**

**D** **Şeirə və göy rənglə verilmiş suallara əsasən cümlələri genişləndirin.**

*a) Balaları (kimdən?) qoruyaram.*
*b) Almalardan (nə?) alaram.*
*c) Təpələrdən (necə?) keçərəm.*

LAYİHƏ

# 6 VƏTƏNİM AZƏRBAYCAN

**1 A Şəkillərə baxın və suallara cavab verin.**

**1.** Qız qalası harada yerləşir? Şəkildə Qız qalasının ətrafındakı insanlar hansı bayramı qeyd edirlər?

**2.** “Muğam üçlüyü” ifadəsini eşitmisinizmi? Bu üçlüyə hansı musiqi alətləri daxildir?

**3.** “Şəhidlər xiyabanı” haqqında nə bilirsiniz? İnsanlar nə üçün buranı ziyarət edirlər?







LAYİHƏ

**B** **Mətni oxuyun. Tanış olmayan sözləri dəftərinizdə qeyd edin.**

## DOĞMA YURDUN YOVŞANI

Uzaq ölkələrin birində məşhur bir həkim var idi. Çox xeyirxah və müdrik olduğuna görə hamı ona loğman deyərdi.

Ölkənin hökmdarı çox ədalətsiz idi. Hamı onun zülmündən şikayət edirdi. Loğman da bu zülmə dözməyib bir gün ölkəni tərk etdi.

İllər keçir. Ölkənin hökmdarı dəyişir. Yeni hökmdar loğmanı vətənə qaytarmağa çalışır. O, loğmanın yanına elçilər göndərir. Lakin loğman elçilərə rədd cavabı verir.

Hökmdar loğmana çoxlu hədiyyələr göndərir və məktub yazıb geri qayıtmasını istəyir. Lakin loğman hökmdarın hədiyyələrini qəbul etmir. Məktubuna isə rədd cavabı verir.



• Söz boğçası •

• müdrik • ədalətsiz • yovşan
• loğman • zülm • elçi • rədd

**C** **Qruplarla iş**

***1-ci və 3-cü qruplar:*** **Loğmanı yola gətirmək üçün hökmdarın dilindən ona məktub yazın.**
***2-ci və 4-cü qruplar:*** **Loğmanın hökmdara cavab məktubunu yazın.**

**Məktubunuzu yazarkən aşağıdakı ifadələrdən istifadə edin.**
**Hökmdarın adından yazılan məktubda:**
- Siz xalqımıza çox gərəklisiniz, ona görə də ...
- Sizə söz verirəm ki, ...

**Loğmanın adından yazılan məktubda:**
- Mənim sizə böyük hörmətim var, amma ...
- Dəvətiniz üçün təşəkkür edirəm, lakin ...

LAYİHƏ

**2 A** **Loğmanı vətənə qaytarmaq üçün siz hansı təklifi verərdiniz?**

**B Təqdimat** **Valideynlərinizin köməyi ilə yovşan haqqında araşdırma aparıb təqdim edin.**

**C** **Evinizdən uzun müddətə ayrılsaydınız, özünüzlə nə aparardınız?**

**Ç** **Mətnə çəkilmiş şəkildən çıxış edərək hekayənin ardını təxmin edin.**

İnadkar şah loğmanı vətənə gətirmək üçün çarə axtarır. Bu xəbər ölkəyə yayılır. Hərə bir təklif verir.

Bir gün bir çoban hökmdarın yanına gəlib deyir:

– Mən loğmanı vətənə qaytararam.

– Üç gün keçir, doğrudan da, loğman vətənə qayıdır. Şah bu xəbəri eşidib qəzəblənir. Dərhal loğmanı saraya çağırtdırıb deyir:

– Bu necə işdir?! Mənim elçilərimi saymadın, hədiyyələrimə məhəl qoymadın! Amma bir çobanın sözü ilə qayıtdın!

Loğman hökmdarı təmkinlə dinləyir. Sonra cibindən bir yovşan çıxarıb deyir:

– Mənə bəxşiş, hədiyyə lazım deyil. Məni vətənə bax bu yovşan qaytardı. Mən çobanın gətirdiyi yovşanı iyləyəndə gözümün önündə vətən torpağı canlandı. Ürəyim sızladı, göz yaşımı saxlaya bilmədim. Ona görə də vətənə döndüm.

*Dilsuz Dünyamalıyev*

**• Söz boğçası •**

- təmkinlə
- məhəl qoymamaq
- bəxşiş
- ürəyi sızlamaq



**D Rollu oyun** **Şəklə baxın. Çobanla loğmanın görüşünü səhnələşdirin.**

LAYİHƏ

**E** **“Doğma yurdun yovşanı” mətni ilə bağlı aşağıdakı suallara cavab verin.**

*1. Mətn nə haqdadır?*

*2. Mətndə hansı hadisələr baş verir?*

*3. Mətni yazmaqda müəllifin məqsədi nədir?*

• Bunları bilməliyik • MÖVZU • İDEYA

• **MÖVZU**. “Mətn nə haqdadır?” sualına cavab verərkən biz mətnin mövzusunu müəyyən edirik.

“Doğma yurdun yovşanı” mətni *vətən* mövzusundadır.

• **İDEYA**. Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikir ideya adlanır.
“Doğma yurdun yovşanı” mətninin ideyası:

*Vətən sevgisi hər şeydən güclüdür.*

**Ə** **Qruplarla iş** **Aşağıda verilmiş mətnlərin mövzusunu, ideyasını müəyyən edib təqdimat hazırlayın.**

*1-ci qrup: Ağıllı daxıl*

*2-ci qrup: Qar kraliçası*

*3-cü qrup: Qanqalın nağılı*

*4-cü qrup: Padşah və müəllim*

**3** **A** **Mətni oxuyun. Baş qəhrəmanın xarakterinə diqqət edin.**

## BİR PARÇA TORPAQ

Keçmiş zamanlarda gözəl təbiəti olan bir mahal vardı. Bu mahalda cəsur və zəhmətkeş insanlar yaşayırdılar. Mahalın müdrik bir başçısı vardı. Hamı ona Böyük ata deyirdi. Böyük ata çalışırdı ki, həmişə sülh, əmin-amanlıq olsun. O, igidlərinə deyərdi:

– Davanızı insanlarla yox, dağla-daşla edin, igidlərim. Baş yarmayın, qaya yarın, yol çəkin dağlara. Qan axıtmayın, tər axıdın, məhsul yetişdirin. Qoy vətənimiz çiçəklənsin.

Bir gün düşmən ordusu bu ellərə hücum etdi. Böyük ata qan düşməsin deyə düşmənin elçilərinə bir kisə qızıl verib yola saldı.

Səhər tezdən elçilər yenidən gəldilər. Bu dəfə Böyük atanın döyüş atını tələb etdilər. İgidlər hiddətləndilər. Böyük ata onları sakitləşdirdi:

– Mənim döyüş atımı onlara verin, təki ölüm-itim olmasın.

Ertəsi gün elçilər yenə göründülər. Onlardan biri uca səslə dedi:

– Oğlunu aparmağa gəlmişik. O bizim orduda xidmət edəcək.

Elə bil atanın ürəyinə ox dəydi. O, qəm dəryasına batdı.

LAYİHƏ

Amma özünü ələ alıb dedi:

– Döyüşə qalxsaq, çoxlu igidlərimiz məhv ola bilər. Onlar mənim bir oğlumdan əskik deyillər.

Elçilər Böyük atanın oğlunu apardılar. Hamı elə düşündü ki, daha düşmən əl çəkdi, sakitlik yarandı. Ancaq belə olmadı.

Səhər elçilər yenə Böyük atanın yanına gəldilər. Elin ağsaqqalı hirsini cilovlayıb soruşdu:

– Daha nə istəyirsiniz?

Elçilərdən biri dedi:

– Mahalınızdan bir parça torpaq istəyirik. Orada məskən salacağıq.

Hamının nəzəri Böyük ataya dikildi. Onun gözləri qəzəbdən alışıb-yandı. Ayağa qalxaraq qışqırdı:

– Haydı, igidlərim! Torpaq mənim yox, xalqındır. Düşmənə aman verməyin!



**• Söz boğçası •**

- mahal
- hiddətlənmək
- qəm dəryasına batmaq
- özünü ələ almaq
- aman verməmək

**B** **Altından xətt çəkilmiş cümlələri yenidən oxuyun. Atanın keçirdiyi hissləri təxmin edib bu cümlələri izah edin.**

**C** **Böyük ata müharibə olmasın deyə nə etdi?**

*1. Öz döyüş atını düşmənə bağışladı.*

*2. İstifadəsiz, yararsız torpaqları düşmənə verdi.*

*3. Düşmənləri 1 kisə qızılla yola saldı.*

*4. Oğlunun düşmən ordusunda xidmət etməsinə razı olmadı.*

*5. Öz igidlərini səbirli olmağa çağırdı.*

**Ç** **“Doğma yurdun yovşanı” və “Bir parça torpaq” mətnlərini mövzu, məzmun və ideya baxımından müqayisə edin.**

**• Bunları bilməliyik •**

**MƏZMUN**

Mətndə təsvir olunan əsas hadisələr onun məzmununu təşkil edir.

LAYİHƏ

**4 A** **Hansı cümlə “Bir parça torpaq” mətnindəki əsas fikri ifadə edir?**

*a) Qənaətlə dolanan kasıb olmaz.*
*b) Tək əldən səs çıxmaz.*
*c) Vətən torpağından pay olmaz.*

• Bunları bilməliyik • **ATALAR SÖZLƏRİ**

**Atalar sözləri** – ata-babaların söylədiyi müdrik fikirlərdir. Fikrimizi daha aydın, təsirli çatdırmaq üçün atalar sözlərindən istifadə edirik.

**B** **Uyğunluğu müəyyən edin.**

*1. Fuad bu gün kitabxanaya getməlidir. Ancaq tənbəllik edir. Dostu ona deyir: ...*

*2. Yayda kəndimizə getmişdik. Həyətdəki ağaclar qurumuşdu. Atam ağaclara baxıb təəssüflə dedi: ...*

*3. Dilarə yeni köynəyini geyib rəfiqəsinə göstərdi. Rəfiqəsi fikirləşdi ki, ... Ona görə də dedi: “Köynək əyninə böyükdür. Sənə yaraşmır”.*

*a) Bu günün işini sabaha saxlama.*

*b) Dost dostun eybini üzünə deyər.*

*c) Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.*

**C** **Oxuduğunuz mətnləri xatırlayın. Verilmiş atalar sözləri ilə uyğunlaşdırın.**

*1. İşləməyən dişləməz.   2. Yaxşılıq itməz.   3. Güc birlikdədir.*







**Ç** **Qrup işi** **Hər bir atalar sözünə uyğun hadisə düşünüb mətn qurun.**

*1-ci qrup: Başqasına quyu qazan özü düşər.*
*2-ci qrup: Könlü balıq istəyənin quyruğu suda gərək.*
*3-cü qrup: Dost çətin gündə tanınar.*
*4-cü qrup: Yalançının evi yandı, heç kəs inanmadı.*

LAYİHƏ

**5 A** **Aşağıdakı atalar sözlərini izah edin.**

**a** *İgid ölər, adı qalar.* **b** *El igidləri ilə tanınar.*

**B** **Şeiri oxuyun. Ananın oğluna verdiyi məsləhətlərə diqqət edin.**

## VƏTƏNİN KEŞİYİNDƏ

Laylasında anam mənə
Belə demiş dönə-dönə:
“Bir anan mən, biri vətən,
Yadda saxla bunları sən.

Canın kimi sev vətəni,
O bəsləmiş, oğul, səni!
Bayrağını möhkəm saxla,
Sərhədini tez-tez yoxla.

Qəhrəman ol, oğul, sən də
Qoru bizi böyüyəndə”.
Gözəl vətən, gözəl vətən,
Keşiyində durmuşam mən.

*Mirvarid Dilbazi*







**?**
- **Şeirin müəllifi kimdir?**
- **Şeir hansı mövzudadır?**
- **Şeiri yazmaqda müəllifin məqsədi nədir?**

**C** **Əmr cümlələri ilə ifadə olunmuş misraları seçib yazın.**

**Ç** **Şeirdə ananın sözlərindən ibarət misraları bir daha oxuyun.**

**• Bunları bilməliyik • DIRNAQ İŞARƏSİ**

Mətndə obrazın dilindən deyilən sözlər bir çox hallarda dırnaq içərisində yazılır.
Məsələn: *Oğlunu cəbhəyə yola salan ana onun arxasınca səsləndi: “Sağ-salamat qayıt, oğul”.*

**D Müzakirə**

**Şəkillərdə əsgər geyiminin rənginə diqqət edin. Bu rəng xaki adlanır. Sizcə, nə üçün əsgərlərin geyimi xaki rəngindədir?**

**• Söz boğçası •**
- səngər
- pilot
- sərhəd
- xaki

LAYİHƏ

## 6 A Mətni oxuyun. Obrazların adlarını qeyd edin.

### ƏSGƏRƏ HƏDİYYƏ



Başirlə Lalənin atası zabit idi. Onların ailəsi hərbi şəhərcikdə yaşayırdı.

Bir gün Başir küçədə velosiped sürürdü. Birdən velosipedin zənciri yerindən çıxdı. Başir nə qədər çalışsa da, onu yerinə sala bilmədi. Bu zaman bir əsgər ona yaxınlaşdı. Tez bir zamanda velosipedi təmir etdi. Onlar tanış oldular. Əsgərin adı Eyvaz idi. Məlum oldu ki, Eyvazın komandiri Başirin atasıdır.

O gündən Başirlə Eyvaz dostlaşdılar. Eyvaz hər dəfə balaca dostunu görəndə ona zarafatyana hərbi salam verirdi. Bəzən də Başirlə Laləni şokolada qonaq edirdi.

**• Söz boğçası •**

- komandir
- sürpriz
- təlim
- hərbi salam

Bir gün uşaqlar xəbər tutdular ki, sabah Eyvazın doğum günüdür. Ona sürpriz etmək istədilər. Çox fikirləşsələr də, bir qərara gələ bilmirdilər. Elə bu vaxt təlimdən qayıdan Eyvazı gördülər. Onun üst-başı toz-torpağa batmışdı. Birdən Lalə sevincək qışqırdı:

– Tapdım, tapdım! Gəl onun paltarlarını yuyaq.

Başir Lalə ilə razılaşdı. Birlikdə plan qurdular.

***

Səhər erkən "Qalx" əmri veriləndə Eyvaz da bütün əsgərlər kimi oyanıb cəld paltarlarını geyinmək istədi. Bu zaman təəccübdən yerində donub-qaldı: paltarları tamam yaş idi. Ancaq çarə yox idi. Birtəhər geyinib sırada dayandı. Komandir Eyvazın gecikdiyini görüb otağına çağırdı. Eyvaz içəri girən kimi komandir hirslə soruşdu:

– Bu nə üst-başdır? Çaya yıxılmışdın?

– Özüm də bilmirəm, komandir.

– Onda cəzanı çəkəcəksən!

**• Sözlərin yazılışı •**

**"o", yoxsa "a"**

| Doğru | Yanlış |
|---|---|
| komandir | kamandir |
| şokolad | şakalad |
| velosiped | velasiped |

LAYİHƏ

**B** **Sizcə, uşaqlar Eyvazın ad günü üçün hansı planı qurmuşdular? Şəkillərə baxın, uşaqların planı haqqında danışın.**



**C** **Rollu oyun** **Mətndə Başirlə Eyvazın tanış olduğu hissəni bir daha oxuyun. Həmin hissəni genişləndirərək səhnələşdirin.**

**7 A** **Hadisələrin davamını təxmin edin. Mətni oxuyun və öz təxmininizlə müqayisə edin.**

Uşaqlar kənarda dayanıb "Qalx" əmrini yerinə yetirən əsgərləri izləyirdilər. Onlar əsgərlərin sırasında Eyvazı görməyib həyəcanlandılar.

Onlar Eyvazın cəzalanacağını təxmin etmişdilər. Gizlicə onun arxasınca komandirin otağına getdilər.

Uşaqlar dəhlizdə gizlənib söhbətə qulaq asırdılar. Birdən Başir cəsarətini toplayıb atasının otağına girdi:

– Ata, onu cəzalandırma, günah bizdədir.

Başirin atası və Eyvaz buna təəccübləndilər. Komandir soruşdu:

– Siz etmisiniz? Nə üçün?

– Bu gün Eyvaz əminin ad günüdür.

– Nə olsun?

– Biz Eyvaz əmini təbrik etmək üçün onun paltarlarını yuduq.

Komandir gülməkdən özünü güclə saxladı. Eyvazın üstündən su damcılayırdı. O, əlini Eyvazın çiyninə qoyub dedi:

– Səni təbrik edirəm. Axşam bizə qonaq gələrsən.

– Baş üstə, komandir! →



LAYİHƏ

Başirin atası uşaqlara sarı çevrilib dedi:

– Sizə isə əsgərə göstərdiyiniz qayğıya görə hərbi hissə adından təşəkkür edirəm!

Uşaqlar təəccüblə komandirin üzünə baxdılar. Bu onların həyatda aldıqları ilk rəsmi təşəkkür idi.

*Hüseyn Nəcəfov*

**• Söz boğçası •**
- təmsil etmək
- rəsmi

**B** **Aşağıdakı plan əsasında mətnin qısa məzmununu danışın.**

*1. Uşaqların Eyvazla tanışlığı*
*2. Uşaqların təbrik planı*
*3. Komandirlə Eyvazın söhbəti*
*4. Uşaqların etirafı*
*5. Komandirin təbriki və təşəkkürü*

**C** **Rollu oyun** **Jest və mimikalardan istifadə etməklə komandirin otağında baş verənləri səhnələşdirin.**

**Ç** **Təşəkkürnamə nümunəsini oxuyun. Onun tərkib hissələri ilə tanış olun.**

**TƏŞƏKKÜRNAMƏ**

təşəkkür edilən şəxsin adı, soyadı → *Kazımlı Lalə Elşən qızı*

təşəkkürün səbəbi → *məktəb üzrə keçirilən bilik yarışmasında qalib olmuşdur. Sinfimizi uğurla təmsil etdiyinə görə təşəkkür edirik.*

imza → *Bakı şəhəri, 59 nömrəli məktəbin 2 D sinfi*

tarix → *24 oktyabr 2019*

**D** **Qruplarla iş** **Verilmiş mövzularda təşəkkürnamə hazırlayın.**

*1-ci qrup: Ətrafın təmizlənməsində fəal iştirakına görə.*
*2-ci qrup: Kimsəsiz uşaqlara yardım etdiyinə görə.*
*3-cü qrup: Novruz şənliyində uğurlu çıxışına görə.*
*4-cü qrup: Rəsm müsabiqəsində qalib gəldiyinə görə.*

LAYİHƏ

•fəsil• 2

# MƏN SÜLHƏ SƏS VERİRƏM

**1 A Mətni oxuyun. Obrazların təsvir olunduğu cümlələrə diqqət edin.**

## BƏYAZ VƏ CUBBULU

1 Sürəyya sakit qız idi. Həyətdə oynayan uşaqlara qarışmazdı. Evcik qurub gəlinciyi ilə oynayır, onunla söhbət edirdi:

– Cubbulu, nahar vaxtıdır, əllərini yu, gəl, otur, yeməyini ye. Sonra səsini bir az nazildib Cubbulunun da əvəzinə danışırdı:

– Mən hələ acmamışam.

– Bax ha, vaxtlı-vaxtında yeməsən, cubbulu qalarsan.

Bütün günü onların yanında bir ağ göyərçin də olurdu. Sürəyya onu Bəyaz çağırırdı. O, eyvana qonur, saatlarla Sürəyya ilə Cubbuluya tamaşa edir, qızcığaz da ona su, dən verirdi.

2 Sürəyyagilin kəndi düşmənlərlə sərhəddə idi. Kənd tez-tez atəşə tutulurdu. Hər dəfə atılan güllə səsindən Sürəyya bərk qorxur, tez-tələsik evciyini yığışdırıb anası ilə zirzəmiyə düşürdü.

Yaz yenicə girmişdi. Aylı bir gecə idi. Evdə hamı yatmışdı. Birdən gurultu səsi hamını oyatdı. Otağın pəncərəsi çilik-çilik oldu. Sürəyya yerindən dik atılıb anasına tərəf qaçdı. Birlikdə həyətə çıxdılar. Elə bu vaxt qonşuları maşını saxlayıb onları səslədi:



• Söz boğçası •

• zirzəmi • macal

3 – Tez olun, maşına minin. Kənddən çıxmaq lazımdır.

Sürəyya qayıdıb gəlinciyini götürmək istəsə də, macal tapmadı.

Onlar başqa kənddə yaşayan xalasıgilə gəldilər. Hamı kimi Sürəyya da bütün gecəni yata bilmədi. Axı necə yataydı?! O, Bəyaz ilə Cubbulunu düşmənlərin əlində qoyub gəlmişdi. Elə hey “Cubbulu” deyib gözünün yaşını axıdır, xalasının verdiyi gəlinciyə yaxın durmurdu.

LAYİHƏ

**B** **Hansı fikirlər mətndə yoxdur, ancaq ola bilər?**

*1. Süräyya göyərçinin adını Bəyaz qoymuşdu.*
*2. Süräyyanın atası cəbhədə döyüşürdü.*
*3. Süräyyanın gəlinciyi maşında qalmışdı.*
*4. Süräyyagilin kəndi dağlıq ərazidə yerləşirdi.*

**C** **Şəkil və mətnə əsasən Süräyyanı təsvir edib yazın.**

*1. Obrazla ümumi tanışlıq   2. Obrazın xarici görünüşü   3. Xarakteri*

**Ç** **Süräyya gündəlik yazsa idi, həmin günlə bağlı nə yazardı? Süräyyanın dilindən həmin günlə bağlı qeydlər yazın.**

**2 A** **Mətnin davamını oxuyun. Hadisələrin ardıcıllığına diqqət edin.**

**4** Kənd tamamilə dağılmışdı. Süräyyagilin evindən təkcə eyvan qalmışdı. Cubbulu daşların arasında toz-torpaq içində idi. Birdən haradansa Bəyaz uçub gəldi. Eyvanın məhəccərinə qondu. Cubbuluya baxıb kədərlə dilləndi:

– Tək qalmısan, Cubbulu?
– Hə, özüm də çox darıxıram.
– Mən də. Lap ürəyim partlayır. Görəsən, Süräyya qayıdıb bura gələr?
– Yox, Bəyaz. Kənd düşmənlərlə doludur axı...
– Bəs onda neyləyək?
– Sənin ki qanadların var! Mən uça bilsəydim, bir dəqiqə də burada qalmazdım.
– Düz deyirsən. Mən Süräyyanın hara getdiyini gördüm. Gəl səni də alım dimdiyimə, gedək Süräyyanın yanına.



**5** Bəyaz uçub Cubbulunun yanına qondu. Onu dimdiyinə alıb qanadlandı. Yandırılmış kəndlərin üstü ilə uçurdular. Hər tərəfdən burula-burula tüstü qalxırdı. Bəyaz boğulurdu. Amma var gücünü toplayıb yoluna davam edirdi. Gecikmək olmazdı, bir azdan hava qaralacaqdı.

Uzaqda Süräyyanın getdiyi kənd görünürdü...

*Sevinc Nuruqızı*

**• Söz boğçası •**
• məhəccər

LAYİHƏ

**B** **Şəkillərə əsasən mətni tamamlayın.**



**C** **"Bəyaz və Cubbulu" mətninin bədii mətn olduğunu əsaslandırın.**

**Ç** **Araşdırma** **Azərbaycanın işğal olunmuş torpaqları barədə 10 fakt bildirən cümlə yazıb elmi mətn hazırlayın.**

**D** **Aşağıdakı yarımbaşlıqlarla mətnin nömrələnmiş hissələrini uyğunlaşdırın.**

*a) Kənddə baş verən atışma*

*b) Dostların Sürəyyanı axtarması*

*c) Bəyazla Cubbulunun darıxması*

*ç) Sürəyyanın gəlinciklə oynaması*

*d) Sürəyyanın xalasıgilə gəlməsi*

• Bunları bilməliyik • **YARIMBAŞLIQ**

Mətndəki əsas hadisələr **yarımbaşlıqlarla** adlandırılır. Mətnin planı yarımbaşlıqlar əsasında tərtib olunur.

**E** **Oxuduğunuz mətn üçün aşağıdakı başlıqlardan birini seçin və seçiminizi əsaslandırın.**

*1. Ayrılmaz dostlar*

*2. Müharibənin dəhşətləri*

**Ə** **Aşağıdakı cümlələrdə göy rənglə verilmiş sözləri yaxınmənalı sözlərlə əvəz edib yazın.**

- *Sürəyyagilin evi uçmuşdu.*
- *Göyərçin gəlinciyi dimdiyinə alıb uçdu.*

LAYİHƏ

**3 A** **Şəkillərə baxın. Açar sözlərdən istifadə edərək müharibənin yaratdığı problemlər haqqında danışın.**





**Açar sözlər:** müharibə, çadır, ac-susuz, evsiz-eşiksiz, ehtiyac, yardım.

**B** **Mətni oxuyun. Şəklin aid olduğu hissəni müəyyənləşdirin.**

## BEYNƏLXALQ YARDIM TƏŞKİLATI

Bir gün Anri Dünan adlı bir yazıçı səfərə çıxır. Yolu müharibə bölgəsinə düşür. Solferino deyilən bir kənddə müharibənin törətdiyi dəhşətlərin şahidi olur. Anri görür ki, məğlub olan tərəf geri çəkilmiş, minlərlə yaralı insan köməksiz qalmışdır. O, yaralılara yardım etməyə başlayır. Amma tezliklə başa düşür ki, təkbaşına hamıya kömək edə bilməyəcək. Odur ki hücum edən əsgərlərin qarşısına çıxıb qışqırır: “Yaralılara aman verin! Axı biz hamımız insanıq”.

Onun bu sözlərindən sonra qarşı tərəf hücumu dayandırıb yaralı əsgərlərə kömək etməyə başlayır.



Bu hadisədən sonra yazıçı düşünür ki, belə vəziyyətlərdə insanlara yardım edən beynəlxalq təşkilat yaradılmalıdır.

O, ideyasını gerçəkləşdirmək üçün gördüyü dəhşətli hadisələrdən bəhs edən “Solferino xatirələri” əsərini yazır. Onun əsəri tezliklə ···→

LAYİHƏ

dünyada tanınır. Bu ideyanın tərəfdarlarının sayı gündən-günə artır.

Nəhayət, yazıçının arzuladığı beynəlxalq təşkilat yaranır. Təşkilat indi dünyada baş verən müharibələrdə və digər fövqəladə vəziyyətlərdə zərər çəkən insanlara yardım edir.

Təşkilat dünyanın bütün ölkələrində fəaliyyət göstərir. Bu təşkilata milyonlarla könüllü dəstək olur.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti də bu beynəlxalq təşkilatın üzvüdür.

**• Söz boğçası •**

• səfər • təşkilat • könüllü • tərəfdar • fövqəladə • dəstək

**C** **Anri Dünanın "Solferino xatirələri" əsərini yazmaqda məqsədi nə idi?**

**Ç** **Anri Dünan nə üçün məhz beynəlxalq təşkilat yaratmaq istəyirdi?**

**D** **Mətnin əvvəlində verilmiş hadisəni Anri Dünanın dilindən danışın.**

**4 A** **Şəkillərə baxın. Beynəlxalq yardım təşkilatı fövqəladə vəziyyətlərdə zərər çəkmiş insanlara necə yardım edir?**





**B** **Ətrafınızda olan məcburi köçkünlərdən müsahibə alın. Aşağıdakı suallardan istifadə edə bilərsiniz.**

- *İşğal olunmuş hansı bölgədənsiniz?*
- *Necə oldu ki, doğma yurdunuzu tərk etdiniz?*
- *Sizə necə yardım olundu?*
- *Yurdunuzla bağlı hansı xatirələriniz var?*



LAYİHƏ

**C Qruplarla iş** **Təsəvvür edin ki, siz Azərbaycan Qızıl Aypara Cəmiyyətinin üzvüsünüz. Aşağıda verilən fövqəladə vəziyyətlərlə bağlı kiçik mətn qurun.**

*1-ci qrup: Qonşu ölkələrin birində zəlzələ baş vermişdir...*
*2-ci qrup: Kür çayının daşması nəticəsində bir neçə kəndi su basmışdır...*
*3-cü qrup: Uzaq Afrika ölkələrinin birində yoluxucu xəstəlik yayılmışdır...*
*4-cü qrup: Müharibə nəticəsində insanlar evsiz-eşiksiz qalmışdılar...*

**5 A Şeiri intonasiya ilə oxuyun. Şeirin mövzu və ideyasını müəyyənləşdirin.**

## MƏN SÜLHƏ SƏS VERİRƏM

Mən sülhə səs verirəm
Milyonlardan biritək.
Qoy bir daha ordular
Üz-üzə dayanmasın.

Mən sülhə səs verirəm,
Bombaların səsindən
Beşikdəki körpələr
Hıçqırıb oyanmasın.

Mən sülhə səs verirəm,
Böyük kəndlər, şəhərlər
Viran olub qalmasın
Tüstü-duman içində.

Mən sülhə səs verirəm,
Qədim abidələri
Yerləyeksan etməsin
Toplar bir an içində.

Mən sülhə səs verirəm,
Ağsaçlı anaların
Gözləri yaşla dolub
Qəlbi darda qalmasın.

*Hüseyn Arif*

**• Söz boğçası •**
- yerləyeksan
- viran olmaq
- top

**B Cümlələri oxuyun. Şeirin bəndləri ilə uyğunlaşdırın.**

*1. Bomba səsləri uşaqları qorxutmasın.*
*2. Analar gözüyaşlı qalmasınlar.*
*3. Qədim abidələr məhv olmasın.*
*4. Bir daha döyüş olmasın.*
*5. Cavan qız-gəlinlərin gözü yolda qalmasın.*
*6. Kəndlər, şəhərlər dağılmasın.*

**Ç “Göyərçin” mətnini dinləyin və öz mətninizlə müqayisə edin.**

**C Sizcə, nə üçün göyərçin sülh rəmzi hesab edilir? Şəklə baxın və bu mövzuda mətn qurub danışın.**



LAYİHƏ

**1 A Şəkillər arasından Azərbaycana aid olanları seçin və haqqında danışın. Seçdiyiniz şəkillər əsasında fəslin adını izah edin.**



**B Mətni oxuyun. Suallara cavab verin.**

## QARABAĞ ATININ ŞÖHRƏTİ



İngiltərə kraliçası Yelizaveta at həvəskarıdır. Odur ki öz ad günündə cıdır yarışı təşkil etmişdi. Yarışda dünyanın hər tərəfindən gətirilən atlar iştirak edirdi. Bu yarışda Azərbaycanı “Zaman” adlı at təmsil edirdi. Cıdırda atı sürmək məşhur jokey Əliyə tapşırılmışdı.

Yarış başladı. Yelizaveta hündür yerdə əyləşib yarışı izləyirdi. Milli geyimdə olan azərbaycanlı jokey və onun atı hər kəsin, xüsusilə Yelizavetanın diqqətini çəkmişdi.

Zaman yarışa başlayan kimi çox az bir vaxtda digər atları və maneələri keçdi. Nəhayət, finiş xəttinə çatdı. Cıdır meydanındakı insanlar, həmçinin Yelizaveta ayağa qalxıb azərbaycanlı jokeyi və onun atını alqışladılar. Yelizaveta yanında oturan köməkçisinə tapşırdı:

– Mən indiyə qədər belə yaraşıqlı və sürətli at görmədim. Atın sahibi nə qədər pul istəsə, verin.

LAYİHƏ

**Mətnin davamını təxmin edin.**
**Sizcə, azərbaycanlı jokey öz atını kraliçaya satacaqmı?**

Yelizavetanın köməkçisi Əlinin yanına gəldi. Atın qiymətini soruşdu. Dedi ki, kraliça onu almaq istəyir. Əli dedi:

– Bu atın 4 yaşı var. Qarabağ atıdır. At Azərbaycan xalqı üçün igidlik, dostluq, sədaqət rəmzidir. Biz onu sata bilmərik. Ancaq kraliçanı təbrik etmək üçün, gətirdiyimiz xalça ilə bərabər atı da hədiyyə edərik.

Zaman kraliçanın ən sevimli atı olur. Onun tapşırığına əsasən mehtərlər ata xüsusi qulluq edirdilər. Hətta kraliça öz saçlarını atın yalmanının qızılı rəngində boyamışdı.

Növbəti cıdır yarışı keçiriləcəkdi. Kraliça Zamanın yarışa qatılması üçün ölkənin ən məşhur jokeylərini gətizdirir. Ancaq heç kim Zamanı ram edə bilmir. Kraliça bərk qəzəblənir.

– Məgər bu ölkədə Zamanı idarə edə biləcək jokey yoxdurmu?

Zamanın belə etməsinin səbəbini heç kim izah edə bilmirdi. Gələn baytarlar "at sağlamdır" deyib gedirdilər. Bir gün baytarlardan biri atın xəstəliyinin səbəbini belə izah etdi:

– At vətən həsrəti çəkir.



**• Söz boğçası •**

- cıdır
- jokey
- yalman
- mehtər
- baytar
- ram etmək

**1. Cıdır yarışı nə ilə bağlı təşkil olunmuşdu?**
**2. Azərbaycan nümayəndələri kraliçanın ad gününə hədiyyə olaraq nə gətirmişdilər?**
**3. Nə üçün Əli çıxıb getdikdən sonra Zaman cıdır yarışlarına qatılmır?**

**C** **Sizcə, nə üçün milli dəyərlərimizi dünyada tanıtmaq vacibdir?**

**Ç** **Siz xaricə getsəydiniz, vətəninizi tanıtmaq üçün özünüzlə nə aparardınız?**

LAYİHƏ

**D** **Azərbaycanın ilk jokeyi haqqında mətni dinləyin. Hansı sualların cavabı dinlədiyiniz mətndə var?**

*1) Əli Tağıyev neçə yaşından jokeylik etməyə başlayıb?*
*2) Əli Tağıyevin nəvələri İngiltərəyə niyə gedirlər?*
*3) Əli Tağıyev Gürcüstanda keçirilən yarışda hansı atı ilə qalib gəlmişdir?*
*4) Camal Tağıyevin İngiltərəyə apardığı atın adı nə idi?*

**2 A** **Şeiri oxuyun. Şeir hansı hadisəyə həsr olunub?**

## QARABAĞ ATI

Günlər keçdi, aylar ötdü,
Qarabağın köhləninə
Qışda kişmiş,
Yazda yaşıl ot verdilər.
Səhər-səhər
Çəmənlərdə gəzdirdilər.
O yemədi, o içmədi.
Arıqladı o günbəgün.
Xiffətini çəkirdi at Şahbulağın,
Cıdır düzün.

*Bəxtiyar Vahabzadə*



**• Söz boğçası •**
• köhlən • xiffətini çəkmək

**B** **Oxuduğunuz şeir "Qarabağ atının şöhrəti" mətnindəki hansı fikri təsdiq edir?**

**C** **Azərbaycanın milli oyunu çövkən barədə mətni dinləyin.**
**Uyğun şəkli müəyyən edin.**
**Mətn və şəkil əsasında oyunun qaydaları haqqında danışın.**







LAYİHƏ

**Ç** **Aşağıdakı izahlara uyğun gələn sözləri seçib kiçik lüğət tərtib edin. Bu sözlərdən hansı fərqli məna qrupuna aiddir?**

| | |
|---|---|
| *1. Ata qulluq edən, atabaxan* | *a) kraliça* |
| *2. Cıdırda at sürən; sirkdə at sürən artist* | *b) baytar* |
| *3. Heyvanları müalicə edən həkim* | *c) jokey* |
| *4. Qadın hökmdar (padşah)* | *ç) mehtər* |

**D** **Mətndəki məlumatlardan istifadə edərək cümlələri genişləndirin.**

*1. Əli satmadı (nəyi? kimə?)*
*2. Mehtərlər qulluq edirdi (nəyə? necə?)*
*3. Kraliça yarış keçirdi (harada? niyə?)*
*4. Əlinin idarə etdiyi "Zaman" qalib gəldi (nə vaxt? harada?)*

**3 A** **Mətni oxuyun. Məkanların təsvirinə diqqət edin.**

## İÇƏRİŞƏHƏR

Altay ilk dəfə idi ki, təzə evlərini görürdü. O, içəri girən kimi eyvana qaçıb ətrafa nəzər saldı:

– Oh, nə gözəldir! Dənizkənarı bulvar, attraksionlar, hündür binalar, geniş küçələr, mağazalar... Buradan hər yan görünür.

Altay bu təzə, yaraşıqlı mənzili çox sevirdi. Amma köhnə məhəllə yoldaşları, ən çox da dostu Aydın üçün darıxırdı. Onlar İçərişəhərdə qonşu idilər. Küçə o qədər dar idi ki, üzbəüz pəncərədən bir-biri ilə söhbət edirdilər.



Birdən qapının zəngi çalındı. Gələn Aydıngilin ailəsi idi.

Altay Aydını eyvana aparıb şəhəri göstərdi:

– Görürsən, necə gözəldir! İçərişəhərdə o dar küçələr, köhnə evlər lap adamı darıxdırırdı. Ancaq burada müasir binalar, geniş park var.

Aydın duruxdu, amma dinmədi. Altay yenə soruşdu: →

LAYİHƏ

– Hə, düz demirəm? İçərişəhəri kökündən uçurub-dağıtmaq lazımdır.

Aydın fikirli-fikirli dilləndi:

– Elə hamısını? Qız qalasını, Şirvanşahlar sarayını da?

Altay duruxdu, ancaq sözünü geri götürmək istəmədi. İkisi də əl-qollarını ata-ata mübahisə edirdilər. Hətta səs-küyə gələn atalarını belə görmürdülər.

**• Söz boğçası •**
- attraksion
- məhəllə
- duruxmaq
- yadelli

**B** **Altayla Aydın nə üçün mübahisə edirdilər? Siz hansı obrazın fikri ilə razı deyilsiniz? Fikrinizi əsaslandırın.**

**C** **Mətnin sonluğunu oxuyun. Öz fikrinizlə müqayisə edin.**



Altayın atası da müzakirəyə qoşuldu:

– Qədimdə paytaxtımız Bakı yalnız İçərişəhərdən ibarət olub. Onu əhatə edən qala divarları şəhərimizi yadellilərdən qoruyub. İçərişəhərdə hər bir ev, küçə keçmişimizdən bir yadigardır. Divardan asılmış o xalçanı görürsünüzmü? O bizə nənə-babalarımızdan qalıb. Ona görə də bizim üçün doğma və əzizdir...

*Mikayıl Rzaquluzadə*

**Ç** **Altayın atası hansı cümlə ilə fikrini bitirə bilər?**

*a) İçərişəhərdə köhnə evləri söküb yenilərini tikməliyik.*

*b) Bakının ətraf rayonlarını da gözəlləşdirməliyik.*

*c) İçərişəhərimizin o dar küçələrini də bax beləcə qoruyub saxlamalıyıq.*

**D** **Şəklə baxın. Mətndəki hansı cümlələr bu şəklin İçərişəhərə aid olduğunu təsdiq edir?**



**E** **Mətndə İçərişəhərdə yerləşən hansı tarixi abidələrin adları çəkilir?**

LAYİHƏ

**4 A** **“Sehrli söz” mətnini dinləyin. Müəllimin suallarına cavab verin.**

• Bunları bilməliyik • **NƏZAKƏTLİ İFADƏLƏR**

Elə söz və ifadələr var ki, onları müəyyən məqamlarda işlədirik.

Məsələn:
- ***Salamlaşarkən:*** *salam, xoş gördük, sabahın xeyir.*
- ***Təşəkkür edərkən:*** *çox sağ olun, təşəkkür edirəm.*
- ***Xahiş edərkən:*** *zəhmət olmasa, xahiş edirəm.*
- ***Təbrik edərkən:*** *mübarəkdir, sağlığınıza qismət.*

Bu cür nəzakətli ifadələr ətrafdakılara xoş təsir bağışlayır.

**B** **Hər bir məqama uyğun nəzakətli ifadə seçin.**

| ***Məqam*** | ***Nəzakətli ifadə*** |
|---|---|
| *1. Biri sizə kömək edir.* | *a) Mübarəkdir!* |
| *2. Dostunuzu yarışa yola salırsınız.* | *b) Zəhmət olmasa!* |
| *3. Kimdənsə kömək istəyirsiniz.* | *c) Üzr istəyirəm!* |
| *4. Kimsə sizdən inciyib.* | *ç) Çox sağ olun!* |
| *5. Dostunuz yeni köynək alıb.* | *d) Uğur olsun!* |

**C** **Rollu oyun**

**Aydınla Altayın yeni mənzildə qarşılaşmasını səhnələşdirin. Nitqinizdə nəzakətli ifadələrdən istifadə edin.**



**5 A** **Mətni oxuyun. Novruz bayramı ilə bağlı milli adət-ənənələrimizi qeyd edin.**

## NOVRUZ BAYRAMI

Novruz bayramı Azərbaycanın milli bayramıdır. Novruz bayramı yaz fəslinin gəlişinə bir ay qalmış qeyd olunmağa başlayır. Belə ki, hər həftənin çərşənbə axşamı növbə ilə Su, Od, Yel, Torpaq çərşənbələri keçirilir.

İlk çərşənbə Su çərşənbəsidir. Həmin gün hamı səhər tezdən bulaq başına gedir, əl-üzünü yuyur, suyun üstündən atlanır.

Od çərşənbəsində, adətə görə, insanlar tonqal qalayıb üstündən tullanırlar. Bunula bütün pis günlərin geridə qalmasını arzulayırlar. ···→



LAYİHƏ

Yel çərşənbəsində əsən isti küləklər yazın gəlişindən xəbər verir.

Axırıncı çərşənbə Torpaq çərşənbəsidir. Həmin gün bütün evlərdə bayram süfrəsi açılır, cürbəcür yeməklər, əsasən, aş, paxlava, şəkərbura, qoğal, badambura və s. bişirilir, bayram xonçası bəzənir.

Kosa, Keçəl bu bayramın rəmzi obrazlarıdır. Onlar bayram axşamı insanları öz oyunları, nəğmələri ilə şənləndirirlər.



**B** **Mətndə hansı Novruz adəti haqqında məlumat verilmir?**







**C** **Hər abzas üzrə yarımbaşlıqlar tərtib edin.**

**Ç** **Qohumlarınızdan birinə Novruz bayramı münasibətilə təbrik açıqçası hazırlayın. Açıqçanızda nəzakətli ifadələrdən istifadə edin.**

**D** **Sinifdə "ən çox sevdiyiniz bayram" mövzusunda sorğu keçirin. Sorğu anketini aşağıdakı kimi tərtib edin. Sorğunun nəticəsinə əsasən diaqram hazırlayın.**

*ANKET NÜMUNƏSİ*

| Şagirdlərin adı | **Bayramlar** | | | | |
|---|---|---|---|---|---|
| | Bilik günü | Bayraq günü | Yeni il | Novruz bayramı | Qurban bayramı |
| *İsgəndərov Şahin* | | | ✓ | | |
| *Həsənova Aytac* | | | | ✓ | |
| *Cəfərzadə Yusif* | | ✓ | | | |

LAYİHƏ

## Ümumiləşdirici təkrar

**6 A Mətni oxuyun. Üç əsas məlumatı qeyd edin.**



### DÜNYANIN ƏN QƏDİM XALÇASI

Azərbaycan xalqının ən qədim milli dəyərlərindən biri də xalçadır. Xalça – divara vurmaq, yaxud ayaqaltına sərmək üçün bəzəkli ev əşyasıdır. Hər bir xalçanın üstündəki naxışlar həmin xalqın milli mədəniyyətinin bir nümunəsidir.

Bu gün dünyanın məşhur muzeylərində Azərbaycan xalçaları nadir sənət əsəri kimi qorunub saxlanılır. Dünyanın ən qədim xalçası da elə Azərbaycana məxsusdur. Bu xalça bərdəli toxucuların əl işidir. Onlar xalını toxuyarkən təbii bitkilərdən alınmış rənglərdən istifadə etmişlər. Ona görə də aradan min illər keçsə də, rəngini dəyişmədən dövrümüzə gəlib çatmışdır. Bərdə xalçası hazırda Rusiyanın ən məşhur muzeylərinin birində şüşə arxasında saxlanılır.

**B Mətnin mövzusu nədir?**

*1. Ev əşyaları 2. Azərbaycan xalçaları 3. Məşhur muzeylər*

**C Hansı cümlə mətnin məzmununa uyğun deyil?**

*1. Saz, tar, kamança Azərbaycanın milli musiqi alətləridir.*
*2. Azərbaycan Milli Xalça Muzeyində xeyli sayda qədim xalça saxlanılır.*
*3. Azərbaycan xalçalarında istifadə olunan naxışlardan biri butadır.*

**Ç Bölmənin mövzusuna uyğun atalar sözünü seçin.**

*1. Sağlam bədəndə sağlam ruh olar.*
*2. Ağıl gücdən üstündür.*
*3. Bu dünyada şirin şey bir anadır, bir vətən.*

**D Aşağıdakı cümlələrdə dırnaq işarələrinin yerini müəyyən edib düzgün şəkildə köçürün.**

*1. Heydər Əliyev demişdi: Mən fəxr edirəm ki, azərbaycanlıyam.*
*2. Bəxtiyar Vahabzadə deyib: Vətən borclu deyil, biz borcluyuq vətənə.*

LAYİHƏ

# 7 ÜNSİYYƏT NƏDİR





**1 A Şəkillərə baxın və suallara cavab verin.**

- Məlumatları hansı yollarla əldə edirsiniz?
- Fikirlərinizi başqalarına necə çatdırırsınız?
- Qobustan qayalarının üstündəki təsvirlər bizə nədən xəbər verir?













LAYİHƏ

**B** **Bizi əhatə edən varlıqlar haqqında məlumatları necə əldə edirik? Şəkillərə baxın və bu haqda danışın.**







**C** **Aşağıdakı informasiya vasitələri ilə məlumat alarkən hansı duyğu orqanlarımızdan istifadə edirik?**






**Ç** **Şeiri oxuyun. Suallara cavab verin.**

### XƏBƏRLƏŞMƏ

Bilirsənmi, qədim insan
Necə xəbər çatdırarmış
Dağda olsa, bağda olsa,
Ya səfərdə, yolda olsa?
Nağaraya vura-vura,
Ocaqları qura-qura,
Göyərçinlər uçuraraq
Hay salarmış yerə-göyə,
Çağırarmış o, köməyə:
"Atlılar, ay atlılar,
Atları qanadlılar,
Elimizə gedərsiniz,
Olanları deyərsiniz".



**•Söz boğçası•**

• ünsiyyət • informasiya • hay salmaq

- **Şeirdə hansı xəbərləşmə vasitələrinin adı çəkilir?**
- **Şeirin hansı hissəsi sizə "Tıq-Tıq xanım" nağılını xatırladır?**

LAYİHƏ

## 2 A Şeirin davamını oxuyun. Xəbərləşmə vasitələrinin adını qeyd edin.

Poçt quruldu, məktubları dəstə-dəstə
Poçtalyonlar daşıdılar dostdan-dosta.
Daşıdılar sevincləri, kədərləri,
Çatdırdılar acı, şirin xəbərləri.
Qəzet, jurnal çıxardılar daha sonra,
Teleqramlar vurulurdu ora-bura.
“Alo” deyib telefonlar çağıranda
Məsafələr lap qısaldı bircə anda.
Uzaqlarla yaranırdı əlaqələr,
Radiodan yayılırdı artıq xəbər.
Ağ-qaraydı televizor yarananda,
Rəngli ilə əvəzləndi tez zamanda.
Ən nəhayət, internetin əsri gəldi,
Son xəbərlər hər saniyə yeniləndi.
İndi artıq min-min evdə məskən salır,
İnsan oğlu hər xəbəri ondan alır.

*Ləman Həsənli*







**Söz boğçası**

• poçt • poçtalyon • teleqram • kanal • jurnal • qəzet • internet • əsr

**B** **Şeirin məzmunundan çıxış edərək informasiya vasitələrini zaman ardıcıllığı ilə düzün.**

*radio* *internet* *teleqram* *televiziya* *məktub* *telefon* *qəzet*

**C** **Şeirdə hansı rənglə verilmiş sözlər əksmənalıdır? Onlardan hansı əlamət bildirir?**

**Ç** **Şeirdə altından xətt çəkilmiş misranı necə başa düşürsünüz?**

**Verilmiş şəkil bu misranı ifadə edirmi?**



**D** **Aşağıdakı misraları izah edin.**

“Alo” deyib telefonlar çağıranda
Məsafələr lap qısaldı bircə anda.

LAYİHƏ

**E** ***Acı, şirin*** **sözləri varlığın hansı əlamətini bildirir:** ***formasını, rəngini, dadını, ölçüsünü?***
**Bəs** Çatdırdılar *acı, şirin* xəbərləri **misrasında bu sözləri necə izah etmək olar?**

**• Faydalı məsləhət •** **SÖZÜN MƏNALARI**

Sözün bir neçə mənası ola bilər. Onun mənasını izah etmək üçün işləndiyi cümləyə diqqət yetirmək lazımdır:

| söz | cümlə | məna |
|---|---|---|
| *böyük* | *Onlar böyük evdə yaşayırlar.* | *iri, yekə, geniş* |
| | *İsgəndər böyük sərkərdə idi.* | *tanınmış, məşhur* |

**ə** **Cümlələri oxuyun, "baş" sözünün yerinə görə mənasını izah edin.**
1. Dağın başında qar var idi.
2. Kolların arasından tülkünün başı göründü.
3. Baş həkim xəstəyə yaxınlaşdı.

**3 A** **Şəklə baxın. Sizcə, bu mətndə hansı informasiya vasitəsindən danışılır?**

## QƏDİM OĞUZ ELİ

**I hissə** Biri varmış, biri yoxmuş. Çox qədim zamanlarda Oğuz elində balaca bir oğlan yaşayırmış.

Bir gün balaca oğlan çəmənlikdə oynayırdı. Birdən o, dağın başında yanan bir ocaq gördü. Ocaq o qədər gur yanırdı ki, obanın dörd bir yanından görünürdü. Uşaq baxdı ki, ocağı görən hamı sevinir, şadlanır.

Balaca oğlan babasının yanına qaçdı, təəccüblə soruşdu:

– Baba, ay baba, bu ocaq niyə yanır, camaat niyə belə sevinir?

– Elimizin adəti budur, bala. Elimizdə igidləri, xatunları şənliyə, toya çağıranda uca dağın başında bir tonqal qalayırlar. Başqa yerlərdə bu alovu görüb orada da tonqal qalayırlar.

Beləcə, şənlik xəbəri bütün Oğuz elinə yayılır. Hamı geyinib-kecinib şənliyə gəlir. Gəl hazırlaşaq, biz də elin şənliyinə qatılaq.



LAYİHƏ

**B** **Sizcə, qədimdə insanlar nə üçün ocaq vasitəsilə xəbər yayırdılar?**

**C** **Əgər düşmən doğma elə hücum etsəydi, sizcə, bu xəbəri hamıya necə çatdırardılar?**

**Söz boğçası**
- Oğuz eli
- xatun
- yüyrək
- alqış
- qalamaq
- ağbirçək

**II hissə**

Nağıl dili yüyrək olar, deyərlər. Bu hadisədən xeyli vaxt keçir. Bir gün balaca oğlan görür ki, dağın başında yenə ocaq qalanıb. Qaça-qaça babasının yanına gedir:

– Baba, ay baba, bax, ocaq qalayıblar. Deyəsən, yenə şənlik var.

– Oğul bala, görürsən, orada iki tonqal var. Bu o deməkdir ki, elin başında təhlükə var. Düşmən yurdumuza basqın edib. İndi igid oğullarımız toplanıb elimizi qoruyacaqlar, bala.

Uşaq görür ki, doğrudan da, el-obanın ağsaqqalları, ağbirçəkləri alqışlarla igidləri döyüşə yola salırlar.




**Ç** **Şəkildə Oğuz elinin ağsaqqallarının dilindən verilmiş cümlələri oxuyun. Əsgəri döyüşə yola salarkən ona arzularınızı necə ifadə edərdiniz?**

**• Bunları bilməliyik •** **ALQIŞ**

• **Alqış** – xoş arzu, niyyət ifadə edir:
*Ocağınız yanar olsun! Çörəyiniz bərəkətli olsun!*

**D** **Aşağıdakı cümlələrdən hansı alqışdır?**

*a) İgid oğullar vətəni qoruyurlar.*

*b) El-oban səninlə fəxr etsin!*

*c) Vətən ana qədər doğmadır.*

LAYİHƏ

## 4 A Sizcə, Oğuz eli daha hansı xəbərlər üçün ocaqlar qalayırmış?

**III hissə**

Zaman su kimi axıb keçdi. Oğuz elindən düşmənin ayağı kəsilmiş, gözəl günlər geri qayıtmışdı. Bizim balaca da xeyli böyümüşdü. Bir gün yenə o, dağın başında ocaq gördü. Amma indi üç ocaq qalanmışdı. Üz tutdu babasına:

– Ay baba, indi də dağın başında üç ocaq yanır. Bunun mənası nədir?

– Oğul, torpağın yurd, vətən olması üçün iki şərt lazımdır. Biri odur ki, gərək bu torpağı düşməndən qoruyasan. Biri də odur ki, torpağı əkib-becərəsən. Torpağı qoruya bilmiriksə, əkib-becərməyə dəyməz. Əkib-becərmiriksə, qorumağa dəyməz. Dağın başında gördüyün o üç ocaq da insanları əkin-biçinə səsləyir. Tanrı onların qoluna qüvvət versin. Torpağımız bərəkətli olsun!



*Laman Həsənli*

## B Mətnə əsasən şəkillərin ifadə etdiyi məlumatları müəyyən edin.



## C Qruplarla iş Hadisələrə uyğun alqışlar düşünüb yazın.

**1-ci qrup**

*Ayselin 7 yaşı tamam olmuşdu. Dostları onu təbrik etməyə getdi. Ona öz arzularını bildirdilər.*

**2-ci qrup**

*Novruz bayramı idi. Azər babası ilə nənəsini təbrik etmək üçün onlara getmişdi.*

**3-cü qrup**

*Şam yeməyi bitərkən Ayan anasına dadlı yeməklərə görə xoş arzularını bildirdi.*

**4-cü qrup**

*Şahmat yarışında Nadir qalib gəlmişdi. Sinif yoldaşları onu təbrik etdilər.*

LAYİHƏ

**5 A** **Mətndəki yer və şəxs adlarını qeyd edin.**

## QƏLƏBƏ XƏBƏRİ

**I hissə**

Bu hadisə çox qədimdə baş verib. O dövrdə Yunanıstan və İran arasında müharibə gedirdi. İran ordusu Yunanıstanın paytaxtı Afinaya doğru irəliləyirdi. Afinanı idarə edən **üç** ağsaqqal bir yerə yığışıb məsləhətləşdilər.



**Birinci** ağsaqqal dedi:

– İran qoşunları Marafon şəhərinə yaxınlaşıb. Marafonla Afina arasında cəmi 42 km məsafə var. Onlar Marafonu alsalar, bir günə paytaxta çata bilərlər.

Bu yerdə **ikinci** ağsaqqal ayağa qalxdı:

– İranlılar şəhərə girsələr, heç kimə aman verməyəcəklər. Gəlin Afinadakı qadın və uşaqları şəhərdən çıxaraq. Onları dağlarda gizlədək.

**Üçüncü** ağsaqqal təklif etdi:

– Gəlin iranlıları duz-çörəklə qarşılayaq, onlara baş əyək. Onda rəhmə gələrlər, heç kimə toxunmazlar.

Yunan ordusunun sərkərdəsi Miltiad bu sözlərdən hiddətləndi. Söz alıb danışmağa başladı:

– Biz İran ordusu ilə döyüşə girməliyik. And içirəm ki, son damla qanımıza qədər vuruşacağıq, düşməni paytaxta buraxmayacağıq.

Hamı Miltiadı alqışladı. Amma ağsaqqallar şərt qoydular:

– Üç gün ərzində səndən xəbər çıxmasa, biz qadınları və uşaqları şəhərdən çıxaracağıq.

**B** **Uyğunluğu müəyyən edin.**

1 Yunanıstan　2 Afina　3 Marafon　4 Miltiad

a paytaxt　b sərkərdə　c ölkə　ç şəhər

**C** **Ağsaqqallardan hansının təklifi sizin xoşunuza gəlmədi? Səbəbini izah edin.**

LAYİHƏ

**Ç** **Cümlələri tamamlayın.**

*1. Ağsaqqallar məsləhətə yığışdılar, çünki ...*
*2. İkinci ağsaqqal qadınları şəhərdən çıxarmağı təklif etdi, çünki ...*
*3. Miltiad üçüncü ağsaqqalın sözlərinə hiddətləndi, çünki ...*
*4. Ağsaqqallar Miltiadı alqışladılar, çünki ...*

**D** **Mətnin sonuncu cümləsindən hansı nəticəni çıxarmaq olar?**

*1. Miltiad ağsaqqallara mütləq qələbə xəbəri çatdırmalı idi.*
*2. Afinada qadın və uşaqların taleyi döyüşün nəticəsindən asılı idi.*
*3. Qələbə xəbəri gəlsə idi, qadın və uşaqları şəhərdən çıxaracaqdılar.*

**E** **Mətndə qırmızı rəngli sayla göy rəngli saylar arasındakı fərqi izah edin.**
**Aşağıdakı sxemdən istifadə edin.**




**• Bunları bilməliyik •** **-ıncı HİSSƏCİYİ**

• Bəzi say bildirən sözlərə ***-ıncı*** hissəciyi artırdıqda varlığın sıradakı yeri bildirilir.
Bu hissəcik ahəng qanununa uyğun olaraq dəyişir. Məsələn:
*qırx**ıncı**, beş**inci**, on**uncu**, üç**üncü**.*
Bu sözləri rəqəmlə də ifadə etmək olur. Bu zaman *-ıncı* hissəciyi qısaldılır: -~~ın~~***cı***. Nümunə:
40-**cı**, 5-**ci**, 10-**cu**, 3-**cü**.

**Ə** **Aşağıdakı sayları sözlə ifadə edib yazın.**

97 | 20-ci | 36-cı | 125 | 41-ci | 9-cu

**F** **Nöqtələrin yerinə uyğun gələn sayları yazın.**

*yeddi* | *yeddinci* | *üç* | *qırxıncı*

1 *... gün, ... gecə yol getdi.*
2 *Göyün ... qatına qalxdı.*
3 *Göydən ... alma düşdü.*
4 *Məlikməmməd ... qapını açdı.*

LAYİHƏ

## 6 A Mətni oxuyun. Tanış olmayan sözləri qeyd edin.

**II hissə**

Üçüncü gün yetişdi. Sübh tezdən Marafon yaxınlığındakı çöldə qızğın döyüş başladı. Əvvəlcə İran döyüşçüləri yunanları ox yağışına tutdular. Atılan oxlar az qala Günəşin qabağını tuturdu.

Sonra qılınc döyüşü başladı. Yunanlar düşməni üstələyirdilər. Cəsur Miltiad cəng arabasında döyüş meydanının sağından girib solundan çıxırdı. Lakin iranlılar həddən artıq çox idilər. Həlak olan bir nəfərin yerinə beşi gəlirdi.

Nəhayət, Miltiad qərara gəldi ki, ilanın başını əzsin. Buna görə də İran ordusunun başçısını axtardı.

İran sərkərdəsi böyük bir filin üstündə oturub döyüşü seyr edirdi. Miltiad cəng arabasını düz onun üstünə sürdü. Filə çatanda düşmənin üstünə tullandı. Bir göz qırpımında xəncərini çıxarıb sərkərdənin boğazına dirədi və qışqırdı:

– Döyüşçülərinə de ki, silahı yerə qoysunlar. Yoxsa boğazını üzərəm.

Sərkərdənin rəngi ağardı. O, döyüşçülərinə təslim olmaq əmrini verdi. Beləliklə, yunan əsgərləri düşmən üzərində qələbə çaldılar.



**Söz boğçası**

- üstələmək
- cəng arabası
- dirəmək
- bir göz qırpımında
- həlak olmaq
- təslim olmaq
- rəngi ağarmaq

## B Aşağıdakı cümlələri izah edin.

- *Atılan oxlar az qala Günəşin qabağını tuturdu.*
- *Miltiad qərara gəldi ki, ilanın başını əzsin.*

## C Doğru, yoxsa yanlış?

*1. Miltiad Afina ağsaqqallarına verdiyi sözün üstündə durdu.*
*2. Döyüşdə yunan əsgərlərinin sayı çox idi.*
*3. Miltiadın cəsurluğu yunanlara qələbə qazandırdı.*
*4. İran sərkərdəsi Miltiada təslim olmadı.*

## Ç Şəkildən istifadə etməklə ikinci abzası genişləndirib nəql edin.

LAYİHƏ

## 7 A Mətni oxuyun. Suallara cavab verin.

**III hissə**

Artıq axşam düşmüşdü. Bu gün Afina ağsaqqallarına xəbər çatdırmaq vaxtı idi. Miltiad döyüşçüləri başına yığıb dedi:

– Bilirəm, ağır döyüşdən sonra hamınız yorulmusunuz. Amma bu gecə biz Afinaya qələbə xəbərini çatdırmalıyıq. Kim bunu edə bilər?

Gənc bir əsgər irəli çıxdı:

– Mən yaxşı qaçıram. Özüm də Olimpiya oyunlarının qalibi olmuşam. Qoy bu xəbəri mən çatdırım.



Gənc əsgər qaça-qaça Marafondan çıxıb Afinaya tərəf üz tutdu...

Afinada qadın və uşaqları şəhərdən çıxarmağa hazırlaşırdılar. Qala gözətçiləri intizarla Marafona gedən yola baxırdılar. Birdən Ayın zəif işığında kimsə göründü. O qaça-qaça şəhərə yaxınlaşırdı. Gözətçilərdən biri diqqətlə baxıb qışqırdı:

– Bu ki yunan əsgəridir. Marafona döyüşməyə getmişdi.

Hamı qala qapısından çıxıb əsgəri qarşılamağa getdi. Onlar yaxınlaşanda əsgər özünü saxlaya bilməyib diz üstə çökdü. Bütün gücünü toplayıb üç kəlmə deyə bildi:

– Biz qələbə çaldıq!

*Rafiq İsmayılov*

- **Nəyə görə Afinaya xəbəri gecikdirmək olmazdı?**
- **Nə üçün Afina qalasının gözətçiləri Marafon tərəfə intizarla baxırdılar?**

## B Mətndə yunan döyüşçüsü qələbə xəbərini paytaxta çatdırmaq üçün 42 km məsafəni dayanmadan qaçır. Təsəvvür edin ki, Qarabağda gedən döyüşlərin birində siz də iştirak etmisiniz. Siz qələbə xəbərini paytaxt Bakıya hansı informasiya vasitələri ilə çatdırardınız?

## C Qruplarla iş

**Mətnin hər bir hissəsinə aid plan tərtib edin və mətni plan üzrə nəql edin.**

LAYİHƏ

# ŞƏKİLLƏRDƏN HƏRFLƏRƏ

**1 A** **Təsəvvür edin ki, sizə bir bağlama gəlib. Bağlamada aşağıdakı əşyalar var. Sizcə, bu əşyalar vasitəsilə sizə hansı xəbəri çatdırmaq istəyirlər?**





**B** **Mətni oxuyun. Suallara cavab verin.**

## BİR QALANIN SİRRİ

**I hissə**

Keçmiş zamanlarda bir həkim və alim vardı. Onlar bütün çiçəklərin, otların sirrini bilirdilər. Alim dərman bitkilərini tapıb gətirər, həkim onlardan məlhəm hazırlayardı.

Bu məmləkətin Simnar xan adlı bir zalım hökmdarı var idi. O, dağlardan gələn çayların qarşısını kəsdirmişdi. Camaat bir içim suya görə Simnar xana boyun əyməli olurdu.

Günlərin birində həkim yeni bir dərman düzəltdi. Dərman daşı əridib suya çevirir, ətrafı canlandırırdı. Bu dərmanın sorağı Simnar xana çatdı. O öz adamları ilə həkimin evinə gəldi ki, dərmanın sirrini öyrənsin. Həkim sirri verməyə razı olmadı. Simnar xanın adamları həkimin qarşısına iki qab qoydular. Qabların birində qızıl, o birində isə qandal var idi.

Simnar xan dedi:

– Həkim, bunlara bax, birini seç!

Amma həkim hədiyyələrə baxaraq başını buladı. Heç bir sirr vermədi. Bunu görən zalım xan həkimi Qanlı Qayadakı zindana saldırdı.

**Söz boğçası**
- məlhəm
- məmləkət
- zindan
- qandal



- **Həkim dərmanları nədən hazırlayırdı?**
- **Həkimi nə üçün zindana saldılar?**
- **Sizcə, Simnar xan dərmanı nə üçün əldə etmək istəyirdi?**

LAYİHƏ

**C** **Sizcə, Simnar xan qızıl və qandalı həkimə göstərməklə nə demək istəyirdi?**



**2** **A** **Mətnin davamını oxuyun. Hadisələrin ardıcıllığına diqqət edin.**

**II hissə**

Kənddə heç kim həkimin yerini bilmirdi. Kənd camaatı çox narahat idi. Alim baba həkimin şagirdini yanına çağırıb dedi:

– Elşən, həkim heç vaxt bizə bir xəbər qoymamış evdən çıxmazdı. Gəl gedək, onun evinə baxaq.

Onlar həkim babanın evinə yollandılar. Evdə hər şey alt-üst idi. Alim baba ilə Elşən həkimdən bir nişanə tapmaq üçün hər yerə baxdılar.

Dərmanların yığıldığı rəfdə bir qutu tapdılar. Elşən qutunu açdı. Qutunun içində nar, sim, qanlı daş və qıfıl var idi. Elşən qutunun içindəkilərə baxıb heç nə başa düşmədi. Alim baba gülümsədi:

– Həqiqətən, həkim baba ağıllı və tədbirli imiş. O, yerini bizə qabaqcadan bildirib.

Elşən xəncərini tez belinə bağladı. Kənd camaatına xəbər verdi.



*M.Təhmasibin eyniadlı əsəri əsasında*

**Söz boğçası**
- nişanə
- sim
- tədbirli

**B** **Sizcə, həkim şəkildə gördüyünüz əşyalarla dostlarına hansı xəbəri çatdırmaq istəyirdi?**

**C** **Şəkillərə əsasən mətnin sonluğunu danışın.**



LAYİHƏ

**Ç** **Şəkil adlarındakı *sim* və *simli* sözləri hansı suallara cavab verir? Bu sözlər arasındakı fərqi izah edin.**



*sim*



*simli musiqi aləti*

**D** **Verilmiş sözləri suallar əsasında qruplaşdırıb yazın.**

*bilik, tərbiyə, külək,*
*ürəkli, intizam, küləkli,*
*ürək, tərbiyəli, ətir, intizamlı,*
*bilikli, ətirli*

• Nümunə •

| Nə? | Necə? |
|---|---|
| *bilik* | *bilikli* |
| | |

**• Bunları bilməliyik • -LI, -Lİ, -LU, -LÜ HİSSƏCİYİ**

• Bir çox ad bildirən sözlərə -lı hissəciyi artırmaqla əlamət bildirən söz yaratmaq olur. Bu hissəcik ahəng qanununa uyğun olaraq dəyişir: -lı, -li, -lu, -lü.

*işıq – işıqlı, fərq – fərqli, nur – nurlu, güc – güclü*

**E** **Ad və əlamət bildirən söz cütlükləri yaradıb yazın.**

*cəsarət – cəsarətli* | ______ *– duzlu*
*tədbir* – ______ | *daş* – ______
______ *– ağıllı* | ______ *– sirli*

**3 A** **Mətnin adından və şəkillərdən istifadə edərək mətnin məzmununu təxmin edin.**

## SİRLİ HEKAYƏ

Bu əhvalat keçən yay olmuşdu. Bir gün atam söz verdi ki, həftəsonu məni Qobustana səyahətə aparacaq. Bazar gününü intizarla gözləyirdim. Nəhayət, həmin gün yetişdi. Biz avtobusa minib yola düşdük. →



LAYİHƏ

Avtobusda atam gülümsəyərək dedi:
– Qarşıda səni çox maraqlı gəzinti gözləyir. Qobustan qayalarında sirli hekayələrlə tanış olacaqsan.

Maraq məni bürüdü. Avtobusdan düşüb atamla Qobustan qayalığına tərəf yollandıq. Burada yaşayış yox idi. Amma çoxlu turistlər vardı. Onlar qayaların şəklini çəkirdilər.

Diqqətlə ətrafa baxdım. Maraqlı bir şey görmədim:

– Ata, bunlar ki adicə qayadır. Bəs hanı maraqlı hekayələr?

Atam gülümsədi:

– Ora bax, qayaların üzərində həkk olunmuş şəkilləri görürsən?

– Hə, nə olsun ki? – deyə soruşdum.

Atam dedi:

– Qədim insanlar öz fikirlərini şəkillərlə ifadə edirdilər. Qayalarda çəkilmiş rəsmlər keçmişimizdən xəbər verir. İndi biz o şəkillərə baxaraq keçmişdəki insanların  yaşayışı, məşğuliyyəti haqqında məlumat ala bilərik.

Yaxınlıqdakı qayanın üstünə baxdım. Burada ov edən insanlar təsvir olunmuşdu. Yuxarıda isə qayıqda oturmuş balıqçıların rəsmi var idi. Öz-özümə düşündüm: “Görünür, qədim insanlar ova gedirmişlər. Həm də qayıqla dənizə çıxıb balıq tuturmuşlar”.

Digər tərəfdə isə əl-ələ tutmuş insan rəsmləri diqqətimi cəlb etdi. Onları atama göstərib dedim:

– Ata, bax. Elə bil yallı gedirlər.

Atam dedi:

– Qədimdə ovu uğurlu keçən insanlar rəqs edib əylənirmişlər.

Qayaların üstü şəkillərlə dolu idi. Anlamağa çalışdıqca bu şəkillər, doğrudan da, maraqlı hekayəyə çevrilirdi.

Atam haqlı imiş. Şəkilli qayalar keçmişdən bu günə maraqlı hekayələr daşıyır.

*Ləman Həsənli*



**Söz boğçası**

- həkk olunmaq
- maraq bürümək
- intizarla
- yallı getmək

LAYİHƏ

**B** Şəkilləri mətndə müxtəlif rənglərlə verilmiş cümlələrlə uyğunlaşdırın.

1



2



**C** **Cütlərlə iş**

**Həyatınızda rast gəldiyiniz ən maraqlı hadisəni şəkillə təsvir edin. Yoldaşınızın çəkdiyi şəklə baxaraq onun hansı hadisəni təsvir etdiyini danışın.**

## 4 A Aşağıdakı simvolları hansı fənlərə aid edərdiniz?



**B** **Təsəvvür edin ki, xaricdən gəlmiş bir adamla söhbət edirsiniz. O sizdən kağız pullarımızın üzərindəki təsvirlərin mənasını soruşur. Bu təsvirlərdən istifadə edərək vətəniniz haqqında ona geniş məlumat verin.**




LAYİHƏ

**C Qruplarla iş** **Aşağıdakı təsvirlərə baxın. Təsvirlərdə əks olunmuş simvolların mənaları haqqında danışın.**



**5 A Səslə hərfin fərqini izah edin. Sizcə, onlardan hansı əvvəl yaranıb?**

**B Bu bölmədə oxuduğunuz mətnləri xatırlayın. Qədimdə insanlar bir-birinə xəbəri necə ötürürdülər?**

**• Söz boğçası •**

- tacir
- tələffüz
- əks etdirmək

## ƏLİFBANIN KƏŞFİ

Çox qədimdə insanlar qaya üzərində rəsm çəkməklə öz fikirlərini ifadə edirdilər. Lakin bu şəkillər fikirləri geniş və aydın izah etməyə imkan vermirdi. İnsanlar çalışırdılar ki, dedikləri bütün söz və cümlələri yazıda olduğu kimi əks etdirsinlər.

Günlərin bir günü bir tacir başqa bir şəhərdə alış-veriş edirdi. O, bir dükan sahibi ilə belə bir razılığa gəldi: satdığı malın pulunu bir aydan sonra alacaqdı. Amma tacir qorxurdu ki, bu adam onu aldatsın, malın pulunu verməsin.

O bütün gecəni fikirləşdi, axırda ağlına maraqlı bir fikir gəldi. Tacir danışarkən tələffüz etdiyi hər bir səs üçün bir işarə düşünüb tapdı. O, kəşf etdiyi işarələr vasitəsilə razılaşmanın bütün şərtlərini bir dəri üzərinə yazdı. Bu yazını dükan sahibinə göstərib işarələrin mənasını ona başa saldı. Onlar razılığa gəldilər. ···→



LAYİHƏ

Sonradan bu işarələri hərf adlandırdılar. Zaman keçdikcə başqa adamlar da hərflərdən istifadə etməklə yazı yazmağa başladılar.

Beləliklə, hərflər — danışıq səslərinin yazıda işarəsi yarandı. Hər xalq öz əlifbasını yaratdı. Onlardan biri də latın əlifbası idi. İndi bir çox xalqlar latın əlifbasından istifadə edirlər. Müasir Azərbaycan əlifbası da latın əlifbası əsasında yaradılmışdır.

*Rafiq İsmayılov*

**C** **Nə üçün insanlar hərflər kəşf etməli oldular?**

**Ç** **Aşağıdakı şəkillər sizə hansı hərfləri xatırladır?**





**D** **Qədimdə türklərin öz əlifbası olub. Cədvəldən istifadə edərək qədim türk hərfləri ilə yazılmış sözləri oxuyun.**



o c a q

| Qədim türk hərfləri | 𐰀 | 𐰺 | 𐰋 | 𐱁 | 𐰚 | 𐰁 | 𐰲 | 𐰴 | 𐰆 | 𐱃 | 𐰃 | 𐰏 | 𐰇 | 𐰤 | 𐰓 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Latın hərfləri | a | r | b | ş | k | ə | c | q | o | t | i | g | ü | n | d |

**E** **"D" tapşırığında oxuduğunuz sözləri əlifba sırası ilə düzün. *Baş* və *bir* sözlərindən hansını əvvəl yazdınız? Nə üçün?**

• Bunları bilməliyik • **DAXİLİ ƏLİFBA**

Sözləri əlifba sırası ilə düzərkən sözün yalnız ilk hərfi deyil, sonrakı hərflər də nəzərə alınır.

| | |
|---|---|
| arı | Babək |
| aslan | Bahar |
| at | Banu |
| ayı | Bayram |

**Ə** **Yer adlarını əlifba sırası ilə dəftərinizdə yazın.**

*Bakı, Ağdam, Astara, Buzovna, Bərdə, Aran, Abşeron*

LAYİHƏ

fəsil 3

# MÜASİR DÖVRDƏ İNFORMASİYA

**1 A Aşağıdakı təlimatdan və şəkillərdən istifadə etməklə plastik qabdan və ya kibrit qutusundan telefon düzəldin.**

**TƏLİMAT** **Lazım olan əşyalar:**

*2 ədəd plastik stəkan, 4–5 m. uzunluqda ip.*

**Hazırlanma qaydası:**

*1. Biz və ya qayçı ilə plastik stəkanların dibində deşik açın.*

*2. İpin uclarını stəkanların deşiyindən keçirin və onlara kibrit çöpü bağlayın.*

*3. İp tarım dartılana qədər bir-birinizdən uzaqlaşın.*

*Telefon hazırdır. Danışa bilərsiniz.*



**B Mətni oxuyun. Dərsin əvvəlində düzəltdiyiniz telefonla bağlı hansı məlumat mətndə öz əksini tapır?**

## MORZENİN SİRRİ

**I hissə**

– Nihad, yatırsan? – deyə ata qapını açdı.

Nihad yataqda uzanıb kitab oxuyurdu.

– Al, Elçinlə danış, – ata telefonun dəstəyini Nihada uzatdı.

Elçin Nihadın əmisi oğlu idi. Üç yaş böyük olsa da, onların söhbəti tuturdu. Amma indi gecə vaxtı idi. Bir az hal-əhval tutub sağollaşdılar. Nihad telefonu atasına qaytardı.

Ata otaqdan çıxanda Nihad onu səslədi:

– Ata, necə olur ki, mən burada telefonla danışıram, Elçin şəhərin o başında səsimi eşidir?

– Nihad, bunu başa düşmək üçün hələ çox oxumalısan.

– Eh, həmişə belə deyirsən. Oxuyuram da. Gör neçə kitab oxumuşam.

LAYİHƏ

– Yaxşı, qulaq as. Qədimdə insanlar daha çox işıq vasitəsilə məlumat ötürürdülər. Axı gecə vaxtı işığı lap uzaqdan görmək olur. Məsələn, mayak kimi. Sonra alimlər kəşf etdilər ki, naqillər vasitəsilə çox uzaqlara səs siqnalı da ötürmək mümkündür.

– Telefon belə yarandı?

– Yox, bu hələ telefon deyildi. Bunun adı teleqraf idi. Teleqrafda uzun və qısa səs siqnallarından istifadə edirdilər. Məsələn, a, aaa.

– Bunun nə mənası var axı? Bu cür necə məlumat ötürmək olar?

– Həəə, bax bunun çox maraqlı tarixçəsi var. 150 il əvvəl Amerikada Morze adında bir adam yaşayırdı. O, uzun və qısa səs siqnallarından istifadə edib əlifba yaratdı.



**• Söz boğçası •**

- siqnal
- naqil
- söhbəti tutmaq

– Cəmi iki siqnaldan? Necə?

– Nihad, artıq gecdir. İkimiz də yorulmuşuq. Sabah davam edərik. Yat, mənim balam. Gecən xeyrə qalsın!

Ata işığı söndürüb otaqdan çıxdı.

**C** **Atanın verdiyi hansı məlumatlar sənə məlum idi? Bu haqda bildiklərini danış.**

*1. Naqil vasitəsilə uzağa səs siqnalı ötürmək mümkündür.*
*2. Teleqrafda bir səsin uzun və qısa formalarından istifadə edirlər.*
*3. Qədimdə daha çox işıq siqnallarından istifadə edirdilər.*
*4. Morze əlifbası deyilən əlifba var.*
*5. Mayak gecə vaxtı uzağa işıq siqnalı ötürmək üçün quraşdırılır.*

**Ç** **İki işarədən istifadə etməklə əlifba yaratmaq olarmı? Aşağıdakı ipucundan istifadə etməklə siz də yeni səs işarələri düşünün.**

| A | B | C | Ç | D | E |
|---|---|---|---|---|---|
| ●■● | ● | ■● | ●■ | ■●● | ■ |

LAYİHƏ

**2 A Mətni oxuyun. Morze əlifbası haqqında verilmiş məlumatlara diqqət edin.**

**II hissə**

Nihadın gözləri yumulurdu. O artıq yuxulayırdı. Birdən qonşu otaqdan taqqıltı və qəribə siqnal səsləri eşidildi.

Nihad çarpayıdan qalxıb otağın qapısını açdı. Qarşısına böyük bir otaq çıxdı. Otağın bir küncündə masanın arxasında bir kişi oturub işləyirdi. Bu, uzunsaqqallı, yaşlı bir adam idi. Nihad ona yaxınlaşdı:

– Bağışlayın, siz kimsiniz?

– Mən?.. Samuel Morze. Bəs sən kimsən?

– Mənim adım Nihaddır. Cənab Morze, mən eşitmişəm ki, siz iki siqnalın köməyi ilə əlifba yaratmısınız. Bunu necə etmisiniz?

Cənab Morze otağın o biri küncünü göstərdi:

– O masanın üstündəki cihazı görürsən? Keç onun yanına.



Nihad cihazın yanına getdi. Cənab Morze öz masasının üstündəki cihazda düymələri taqqıldatmağa başladı. Bu zaman qəribə səslər eşidilirdi – uzun və qısa ciyilti səsləri. Nihadın qarşısındakı cihazda da həmin səslər təkrar olunurdu. Eyni zamanda cihazdan kağız lent çıxırdı. Lentin üzərində nöqtə və tire işarələri var idi.

Cənab Morze Nihada yaxınlaşdı:

– Görürsən, bu cihaz qısa səsləri nöqtəyə, uzun səsləri tireyə çevirir. Bu işarələrin müxtəlif cür birləşməsi danışıq səslərini ifadə edir. Bax burada mən sənə salam göndərmişəm:

S a l a m N i h a d

••• | •– | •–•• | •– | –– || –• | •• | •••• | •– | –••

Nihad sevinclə qışqırdı:

– Ura!!! Mən hər şeyi başa düşdüm.

**Söz boğçası**
• cihaz • çaşqın • ciyilti

***

– Nihad... Nihad... Oyan, bala.

Nihad gözlərini açdı. Başının üstündə atası ilə anası dayanıb narahatlıqla ona baxırdılar. Nihad çaşqın halda dilləndi:

– Bəs cənab Morze hanı?..

*Rafiq İsmayılov*

LAYİHƏ

**B** **Sizcə, tire və nöqtələr arasındakı şaquli xətlər nəyi bildirir? İki şaquli xətt nəyi bildirir?**

**C** **Qruplarla iş** **Mətndə Morze əlifbası ilə yazılmış sözlərdən istifadə edərək aşağıdakı sözləri oxuyun.**

*1-ci qrup:* 1) – – | • – | • • • | • –   2) – • | • – | • • | • – • •

*2-ci qrup:* 1) – – | • • | • • • | • – | • – • •   2) – – | • – | • – • • | • –

*3-cü qrup:* 1) • – | – • • | • – | – –   2) • • | • – • • | • • • • | • – | – –

*4-cü qrup:* 1) – – | • – | • • | • – • • | • •   2) • – | • – • • | • • | – –

**3** **A** **Şeiri oxuyun. Şeirdə hansı informasiya vasitəsindən bəhs olunur?**

### SİRLİ EKRAN

Hər evin gərəyidir
Sirli, sehrli ekran.
Uşaq, böyük demədən
Sevir onu hər baxan.
Kino, xəbər, musiqi...
Orada daha nələr var?!
Gecə, gündüz demədən
Hər bir dildə danışar.
Bir düyməyə basarsan,
Buyur, bax, cizgi filmi.
O biri düyməsində
Vardır bir başqa sirri!

Nənəm deyir, əvvəllər
Ekranı ağ-qaraydı,
Nə bu qədər kanallar,
Nə verilişlər vardı.
Bəlkə, illər sonra da
Mən deyəcəm bunları,
Bəlkə, cibə sığacaq
Gələcəyin ekranı.

*Laman Həsənli*



**B** **Şair "sirli, sehrli ekran" dedikdə nəyi nəzərdə tutur? Sizin üçün televizorda sehrli olan nədir?**

**C** **Ağ-qara televizor ekranını necə təsəvvür edirsiniz?**

**Ç** **Siz televizorun gələcəyini necə görürsünüz?**

LAYİHƏ

**D** **Aşağıdakı cümlələri köçürün. Qarşısında cümlənin növünü yazın.**

1. Ura, televizorda bizim məktəbi göstərirlər!
2. Uşaqlar televizorda cizgi filmi izlədilər.
3. Televizorun səsini azaldın.
4. Hansı verilişə baxmağı sevirsən?

**4 A** **Mətni oxuyun. Suallara cavab verin.**

## ANAMLA DANIŞMAQ İSTƏYİRƏM




**Söz boğçası**
- heyrət
- çarəsiz
- minnətdarlıq

Qapı döyüldü. Açanda heyrətdən donub-qaldım. Qonşuluqda yaşayan balaca Seymur gözüyaşlı qapının ağzında dayanmışdı. Nənəsi də yanında idi.

– Nə olub, Seymur? – həyəcanla soruşdum.

Nənəsi çarəsiz halda dilləndi:

– A bala, anası iki gündür, işi ilə bağlı başqa ölkəyə gedib. Gedəndə də Seymura dedi ki, internetə girib onunla əlaqə saxlayacaq. İndi uşaq neçə saatdır, kompüterin qabağında oturub ki, bəs anam hanı? Mənim də başım çıxmır ki, kömək eləyim.

Onları otağa dəvət etdim. Kompüteri qoşub internetə girdim. Bir azdan monitorda Zərifə xala göründü. Seymur sevincindən az qaldı kompüteri qucaqlasın. Son günlərdə məktəbdə, həyətdə başına gələn hadisələri anasına danışdı. Bir az söhbət edib sağollaşdılar. Zərifə xala mənə təşəkkürünü bildirdi. Seymur da minnətdarlıq dolu baxışlarla mənə baxıb dedi:

– Rəna bacı, mənə də internetə girməyi öyrədərsən?

– Əlbəttə. Kompüter böyük bir aləmdir. Onun içində, bilirsən, nə qədər məlumat var. O sənə dərslərində də kömək edə bilər. İstəsən, bəzi tapşırıqlarını elə buradaca edə bilərsən. Çünki kompüterdə yazı yazmaq da olur, şəkil çəkmək də, mətn dinləmək və ya oxumaq da.

LAYİHƏ

Amma bunun üçün əvvəlcə sərbəst oxumağı, yazmağı öyrənməlisən.

Seymur məni maraqla dinləyirdi. Əmin idim ki, bundan sonra o, dərslərini daha həvəslə öyrənəcək...

*Dilrüba Rzayeva*

- **Mətn hansı obrazın dilindən söylənilir?**
- **Seymur hansı problemlə qarşılaşmışdı?**
- **Zərifə xala nəyə görə Rənaya təşəkkür etdi?**

**B** **İnternetdən hansı məqsədlər üçün istifadə edilir? Bəs siz internetdən necə faydalanırsınız?**

**Diaqrama baxaraq sualları cavablandırın.**

*2-ci sinif şagirdlərinin kompüterdən istifadə məqsədlərini əks etdirən DİAQRAM*

- *Cizgi filmlərinə baxırlar.*
- *Şəkil çəkirlər.*
- *Xarici dil öyrənirlər.*
- *Oyun oynayırlar.*
- *Musiqiyə qulaq asırlar.*
- *Dostları ilə ünsiyyət saxlayırlar.*
- *Mövzu üzrə araşdırma aparırlar.*
- *İstifadə etmirlər.*




- **Sorğu hansı məqsədlə keçirilib?**
- **Hansı məqsədlər əyləncə xarakterlidir?**
- **Hansı məqsədlər uğurlu təhsil üçün daha faydalıdır?**

**C** **Aşağıdakı anket əsasında sinfinizdə sorğu keçirin. Sorğunun nəticələri əsasında diaqram tərtib edin. Nəticələri müzakirə edin.**

SORĞU ANKETİ

*Müvafiq xanada işarə (✓) qoymaqla kompüterdən istifadə məqsədinizi qeyd edin. (Ən çox üç məqsəd qeyd edə bilərsiniz.)*

- ☐ Cizgi filmlərinə baxıram.
- ☐ Şəkil çəkirəm.
- ☐ Xarici dil öyrənirəm.
- ☐ Oyun oynayıram.
- ☐ Musiqiyə qulaq asıram.
- ☐ Dostlarımla ünsiyyət saxlayıram.
- ☐ Mövzu üzrə araşdırma aparıram.
- ☐ İstifadə etmirəm.

LAYİHƏ

# Ümumiləşdirici təkrar

**5 A** **Şeiri oxuyun. Qafiyələnən sözləri seçib yazın.**

**MAYAK**

Buludlarda ay batır,
Ulduzlar bir-bir yatır.
O zümrüdgözlü mayak
Dəryada qalır oyaq.
Birdən qopsa fırtına,
Külək əssə hər yana,
Gəmini alsa duman,
Mayaka gəlir güman.
Odur köməyə çatan,
Onu sevir kapitan.

*Xanımana Əlibəyli*



**B** **Mayakın ötürdüyü siqnalı hansı şəkildəki informasiya vasitəsinə bənzətmək olar?**








**C** **Ad və əlamət bildirən söz cütlükləri yaradıb yazın. Həmin sözləri cümlədə işlədin.**

*bulud, ulduz, göz, fırtına, külək, duman*

**• Nümunə •**

***duman – dumanlı.*** *Dumanlı havada mayak gəmiyə yol göstərir.*

**Ç** **Dördündən biri fərqlidir.**

| | | | |
|---|---|---|---|
| *1. a) beş* | *b) iyirmi* | *c) yüz* | *ç) altıncı* |
| *2. a) yeddinci* | *b) onuncu* | *c) doqquz* | *ç) ikinci* |

LAYİHƏ

# 8 ƏTRAF MÜHİT VƏ BİZ

**1 A Suallara cavab verin.**

- Təbiətdəki canlıların insanlar üçün hansı faydaları var?
- Təbiəti nə üçün qorumalıyıq? Bunu necə edə bilərik?
- Köhnəlmiş əşyalarınızla nə edirsiniz?









LAYİHƏ

**B** **Şəkillərdə gördüyünüz canlıların faydaları haqqında danışın.**





**C** **Mətni oxuyun. Mətnin hansı abzasları ipəkqurdu haqqında daha çox məlumat verir?**

## İPƏKQURDU



Bu hadisə çox qədimdə Çində baş vermişdir. Bir gün Çin hökmdarının xanımı tut ağacının altında oturub çay içirdi. Birdən onun fincanına ağ rəngli kiçik bir şey düşür. Xanım barmağını salıb onu çıxarmaq istədikdə dırnaqları nazik sapa ilişir. Şahzadə xanım dartdıqca sap uzanır. Məlum olur ki, bu, ipəkqurdunun hördüyü barama imiş.

Bu hadisədən sonra çinlilər baramadan ipək sap və parça əldə etməyə başladılar.

Bəs ipəkqurdu baramanı necə hörür?

İpəkqurdu kəpənəyin bir növüdür. O, kiçik yumurtalar qoymaqla çoxalır. Bu yumurtalardan balaca qurdlar — tırtıllar əmələ gəlir. Tırtıl tut yarpağı ilə qidalanır. O öz ətrafına barama hörməyə başlayır. Barama hazır olanda tırtıl onun içərisində kəpənəyə çevrilir və uçub-gedir.

İnsanlar baramanı açıb ipək sap hazırlayırlar. Bu sapdan ipək parça toxunur.

**• Söz boğçası •**

- barama
- tırtıl
- ipəkqurdu
- ipək

LAYİHƏ

**Ç** **Mətndəki məlumatlardan istifadə etməklə aşağıdakı sxemi şərh edin.**




**D** **Mətnə əsasən cümlələrin ardıcıllığını müəyyən edin.**

*1. İpəkqurdu barama sarıyır.*
*2. Kəpənək kiçik yumurtalar qoyur.*
*3. İpək saplardan parça toxunur.*
*4. Baramadan ipək saplar hazırlanır.*
*5. Yumurtalardan tırtıllar əmələ gəlir.*

**2 A** **Şəkillərə baxın və geyimlərin nədən hazırlandığı haqda danışın.**

1

2

3



a

b

c

LAYİHƏ

**B** **Şəkillərə baxın və yun parçanın hazırlanması haqqında danışın. Şəkillərin altında verilmiş sözlərdən istifadə edin.**


*qırxmaq*


*yumaq*


*daramaq*


*əyirmək*


*toxumaq*


*tikmək*

**C** **“Pambığın hekayəsi” mətnini dinləyin. Verilmiş cümlələri mətndəki ardıcıllığa uyğun oxuyun.**

*1. Fabrikdə saplar boyanır.*
*2. Tarlada pambıq yetişir.*
*3. Saplardan parça hazırlanır.*
*4. Yığılmış pambıq fabrikə daşınır.*
*5. Pambıqdan saplar hazırlanır.*



**Ç** **Sözlərə -çı, -çi, -çu, -çü hissəciklərini artırıb dəftərinizdə yazın. Alınmış sözləri izah edin.**

*traktor* *əkin* *üzüm* *pambıq*

**3 A** **Şəkildə gördüyünüz insan hansı peşə ilə məşğul olur? Bu peşə haqqında bildiklərinizi danışın.**



LAYİHƏ

**B** **Şeiri oxuyun. Suallara cavab verin.**

## ARI

Arıyam, zəhmətkeşəm,
Bal, mum çəkməkdir peşəm.
Səhər güllər açınca,
Gözəl qoxu saçınca
Uçaram göy yamaca,
Çiçək açmış ağaca,
Ya çəmənə, meşəyə,
Qonaram hər çiçəyə.
Şirəsini çəkərəm,
Pətəyimə tökərəm.
Çalışaram doqquz ay,
Hamı məndən alar pay.
Balımdan qoy yesinlər,
Mənə "sağ ol" desinlər.

*Abdulla Şaiq*

- **Şeir kimin dilindən söylənilir?**
- **Sizcə, arı ilin hansı aylarında çalışmır?**
- **Şeirin sonunda arı təşəkkürü kimdən gözləyir?**





**• Söz boğçası •**

- mum
- nektar
- şan
- neştər

**C** **Dinləmə mətni və şəkillər əsasında arı ailəsi haqqında danışın.**









LAYİHƏ

**4 A** **Aşağıda verilmiş şəkilləri şərh edin.**



**B** **Sizcə, qədim dövrdə insanlar sapları boyamaq üçün nədən istifadə edirdilər?**



**C** **Novruz yumurtalarının boyanması haqqında nə bilirsiniz? Mətni oxuyun və bu haqda yeni öyrəndiklərinizi qeyd edin.**

### BOYANMIŞ YUMURTALAR

Adil hər il Novruz bayramını böyük səbirsizliklə gözləyirdi. Bu bayramda ən çox xoşuna gələn adət isə yumurta döyüşdürmək idi. Bu il qərara gəldi ki, Novruz yumurtalarının rənglənməsi ilə özü məşğul olsun. Soyuducudan dörd ədəd yumurta götürdü. Onları masanın üstünə düzdü. Çantasından rəngli boyalarını və fırçasını çıxarıb işə başladı.

Elə bu vaxt nənəsi otağa daxil oldu.

– A bala, sən nə edirsən? – deyə nənə təəccüblə soruşdu.

– Yumurta boyayıram, nənəcan. İki gündən sonra bayramdır.

– Adil, yumurtanı belə boyamazlar. Axı sonra onu bişirib yeməli olacaqsan. Bu boya isə zəhərlidir, mənim balam, sağlamlığa ziyandır.



LAYİHƏ

Novruz yumurtası üçün təbii boyadan istifadə etmək lazımdır.

– Nənə, bəs mən təbii boyanı haradan alım?

– Yemək üçün istifadə etdiyimiz bu bitkilərə bax: soğan, çuğundur, zəfəran, göyərti. Gör nə gözəl rəngləri var. Yumurtanı boyamaq üçün onların rəngindən istifadə edirlər. İstəyirsən, yumurtaları bir yerdə boyayaq, ağıllı bala.

Həmin gün Adil özü üçün bir şeyi kəşf etdi: ən gözəl rənglər ana təbiətin bizə bəxş etdiyi



**Ç** **Nə üçün təbii boyalardan istifadə etmək daha faydalıdır?**

**5 A** **Müəllimin oxuduğu "Kağızın alınması" mətnini dinləyin. Dinlədiyiniz məlumatlar əsasında ağacların faydası haqqında danışın.**

**B** **"Boyanmış yumurtalar" mətnində Adil nənəsinə "nənə", "nənəcan" deyə müraciət edir. Bəs nənəsi Adilə necə müraciət edir?**

• Bunları bilməliyik • **MÜRACİƏT BİLDİRƏN SÖZLƏR**

Dialoqlarda çox zaman müraciət bildirən sözlər işlədilir. Bu sözlər cümlənin əvvəlində, ortasında və ya sonunda gələ bilər. Məsələn:

*Oğlum, gəl mənə kömək et.*
*Necədir, Nərmin, xoşuna gəldi?*
*Həmişə mərd ol, əsgər.*

Müraciət bildirən sözlər cümlədə digər sözlərdən vergüllə ayrılır.

**C** **Cümlələrdə müraciət bildirən sözləri tapın. Uyğun yerlərdə vergül işarəsi qoymaqla cümlələri köçürün.**

– *Qızım üzün həmişə gülsün.*
– *Mən çağıranda gələrsən Aysel.*
– *Yadından çıxmasın Toğrul saat 5-də görüşməliyik.*

LAYİHƏ

# TƏBİƏTİ QORUYAQ

**1 A** **Bəzən təbiət haqqında danışarkən "ana təbiət" ifadəsi işlədirik. Sizcə, nə üçün təbiət ana ilə müqayisə olunur?**

**B** **Mətni oxuyun. Suallara cavab verin.**

## ANA TƏBİƏTİN UŞAQLARA MƏKTUBU



Əziz balalar!

Bilin və agah olun ki, Yer üzündə bütün canlılar mənim balalarımdır. Ona görə də mənə Ana Təbiət deyirlər.

Siz, yəqin ki, hər səhər güzgüyə baxırsınız və orada özünüzü görürsünüz. Mən də tez-tez güzgüyə baxıram. Bilirsiniz orada nələr görürəm? Meşədə gəzən heyvanları, göydə qanad çalan quşları, suda üzən balıqları, yer altında yuva quran qarışqaları...

Bəli, bunlar hamısı mənəm – Ana Təbiət.

Yer üzündəki bütün canlılar böyük bir ailədir. Ancaq son vaxtlar bir çox heyvanlar, quşlar mənə şikayət edirlər. Deyirlər ki, insanlar bizi incidirlər – ağacları kəsir, odlu silahlarla heyvanları öldürür, suları çirkləndirib balıqları məhv edirlər.

Ola bilsin, bu insanlar bilmirlər ki, həmin canlılar onların bacı-qardaşlarıdır. Bəlkə də, onlar elə düşünürlər ki, Ana Təbiət çox böyükdür. Bir neçə canlını öldürməklə heç nə olmaz. Elə deyil!

Baxın, sizin barmağınıza kiçik bir tikan batanda çox ağrıdır, eləmi? Yer üzündə bir insan kiçik qarışqa yuvasını dağıdanda mənim bədənim də elə ağrıyır.

**• Söz boğçası •**

• agah olmaq • odlu silah

İnsanları başa salın. Deyin ki, mən onların eviyəm. Adam yaşadığı evi çirkləndirməz, bacı-qardaşını incitməz. Çünki bu evdən başqası yoxdur və o həmişə sizin olacaq.

*Balalarıma qarşı dərin sevgi və məhəbbətlə,*

*Ana Təbiət*

*S.Sximmelin eyniadlı hekayəsi əsasında*

LAYİHƏ

- Ana Təbiət kimə müraciət edirdi?
- Ana Təbiətin şikayəti nə idi?
- Mətnin ideyasını əsaslandıran abzası müəyyən edin və oxuyun.

**C** Şəkillərdən istifadə edərək təbiətin mühafizəsi mövzusunda danışın.




**2 A** Verilmiş plan əsasında Ana Təbiətin uşaqlara məktubunun quruluşunu şərh edin.

**PLAN**

*1. Müraciət*
*2. Özünü təqdimetmə*
*3. Problemin izahı*
*4. Ana Təbiətin istəyi*
*5. Sağollaşma*

**B** Ana Təbiət uşaqlara məktubu hansı məqsədlə yazmışdı?

*A) Təbrik etmək B) Şikayət etmək C) Təşəkkür etmək*

**Faydalı məsləhət** **MƏKTUB**

Məktub müxtəlif məqsədlərlə yazıla bilər:

– məlumat vermək və ya almaq üçün;
– xahiş etmək üçün;
– təbrik etmək üçün;
– təşəkkür etmək üçün;
– duyğularını ifadə etmək üçün və s.

LAYİHƏ

**C Qruplarla iş** **Verilmiş mövzulara uyğun məktub yazın.**

*1. Fidana məktub. (O, dərs ilini əla qiymətlərlə başa vurub.)*
*2. Arifə məktub. (O sənə çox lazım olan kitabı hədiyyə göndərib.)*
*3. Aytənə məktub. (O, bir ay əvvəl ailəsi ilə birlikdə başqa ölkəyə köçüb.)*
*4. Müəllimə məktub. (Sən beynəlxalq yarışda 2-ci yerə layiq görülmüsən.)*

**3 A Mətni oxuyun. Obrazların davranışlarına diqqət edin.**

## UZAYLININ DƏRSİ

Kiçik şəhərlərin birində Aydın adlı bir oğlan yaşayırdı. O, şirniyyatı çox xoşlayırdı. Ancaq yediyi dondurma və şokoladların kağızını hər zaman yerə atırdı.

Bir gün Aydın konfet yeyə-yeyə küçə ilə gedirdi. Bu zaman buludların üstü ilə uçan bir uzaylı onu gördü. Aydın həmişəki kimi konfet kağızlarını yerə atırdı.



Uzaylı bunu görüb çox təəccübləndi: "Məgər Yer insanların evi deyilmi? İnsan da öz evini çirkləndirərmi?" O qərara aldı ki, bu oğlana dərs versin.

Uzaylı buludların arasından Yerə endi. Aydının atdığı kağızları toplamağa başladı. Bir gün ərzində o qədər zibil yığdı ki, özü də çaşbaş qaldı.

Kağızları bir torbaya yığan uzaylı Aydının evinə yollandı. Torbanı onun çarpayısına boşaltdı və üstünü səliqə ilə örtdü. ...→



LAYİHƏ

Yatmaq vaxtı gələndə çarpayısının örtüyünü qaldıran Aydın gözlərinə inanmadı. Yatağı zibillə dolu idi. Bütün günü sağa-sola atdığı kağızların hamısı burada idi. Gün ərzində kağızları hara gəldi atmağı gözünün önündə canlandı. O, gecəyarısına kimi çarpayısını təmizləməklə məşğul oldu.

Səhəri gün Aydın konfet kağızlarını yalnız zibil qutusuna atdı. Dostlarından da xahiş etdi ki, yerə zibil atmasınlar.

Axşam Aydın həyəcanla çarpayısına yaxınlaşdı və yavaş-yavaş örtüyü qaldırdı. Yataq tərtəmiz idi. Yastığının üzərində isə bir məktub var idi. Məktubu oxuyanda ona hər şey aydın oldu.



> Afərin sənə, təmizkar bir uşaq olduğuna çox sevindim.
>
> İmza: "N" planetindən gəlmiş uzaylı dostun.

*Aytül Akal*

**• Söz boğçası •**

- uzaylı
- dərs vermək
- örtük
- çaş-baş qalmaq

**B** **Aydının xarakterinə uyğun olan xüsusiyyətləri cədvəl üzrə qruplaşdırın.**
*mehriban, pinti, kobud, səliqəli, laqeyd, qayğıkeş, məsuliyyətsiz*

| *Mətnin əvvəlində* | *Mətnin sonunda* |
|---|---|
| | |

**C** **Uzaylı uşağın məktubunu yenidən oxuyun və məktubun məqsədini müəyyən edin.**

**Ç** **Verilmiş plan əsasında uzaylı uşağın dilindən Yer kürəsindəki uşaqlara məktub yazın.**

**Məktubun planı:**
1. *Uzaylının uşaqlara müraciəti*
2. *Tanışlıq (özünü təqdimetmə)*
3. *Məktubu yazmağının səbəbi*
4. *Uzaylının məsləhətləri*
5. *Sağollaşma*

LAYİHƏ

**4 A** **Mətndə göy rənglə verilmiş sözlərə diqqət edin.**
**Nə üçün bu sözlərdən biri böyük, digəri kiçik hərflə yazılıb?**

• Bunları bilməliyik • **HƏM BÖYÜK, HƏM DƏ KİÇİK HƏRFLƏ YAZILAN SÖZLƏR**

Elə sözlər var ki, bəzən böyük, bəzən isə kiçik hərflə yazılır. Məsələn:
– *Kitab oxumaq **Lalənin** sevimli məşğuliyyətidir.*
– *Anamın ən çox sevdiyi gül **lalədir.***
*Lalə* sözü insan adı bildirdikdə böyük, gül adı bildirdikdə kiçik hərflə yazılır.

**B** **Hansı sözlər cümlədən asılı olaraq həm böyük, həm də kiçik hərflə yazıla bilər?**

*Ceyran, Bakı, Dost, Mahir, Kitab, Qərənfil, Xəzər, Səma, Polad*

**C** **Verilmiş cümlələri elə dəyişin ki, altından xətt çəkilmiş sözlər kiçik hərflə yazılsın.**

*Bu gün Qalib yeni kitab aldı.*
*Dəcəl Arzu bu hərəkətinə görə peşman oldu.*
*Tapşırıqları yerinə yetirmisən, Güllü?*

**Ç** **Verilmiş sözləri nümunəyə uyğun olaraq cümlələrdə işlət.**

*sədaqət, etibar, zaman, mübariz*

• Nümunə •
1. *Sədaqət* artıq ikinci sinfi bitirir. 2. Dostluqda *sədaqət* gərəkdir.

**5 A** **Zavodlardan, avtomobillərdən havaya tüstü qalxır.**
**İnsanların sağlamlığı üçün bunun hansı zərərləri var?**

**B** **Mətni oxuyun. Göy rənglə verilmiş cümlələrə diqqət edin.**

## TƏBİƏTİ SEVƏNLƏR KOMANDASI

Anar müəllim şagirdlərin ən sevimli müəllimi idi. O çox mehriban və sadə adam idi. Uşaqlar üçün yalnız müəllim yox, həm də dost idi. Bir gün Anar müəllim məktəbə velosipedlə gəldi. Bunu görən uşaqlar təəccüblə soruşdular:
– Müəllim, maşınınız xarab olub?
– Yox, sadəcə, qərar vermişəm ki, bundan sonra maşını mümkün qədər az sürüm.

LAYİHƏ

Maşınlar havanı çirkləndirir. Mən isə təbiəti qorumaq istəyirəm.

– Təbiəti qorumaq? Siz bunu necə edəcəksiniz? – onlar müəllimin arxasınca həyəcanla sinifə qaçdılar.

– Əslində, bu, çətin deyil. Siz də edə bilərsiniz. Deyin görüm, təbiətə necə qayğı göstərmək olar? Siz dedikcə mən lövhədə yazacağam.

Ayxan yerindən dedi:



– Mən bundan sonra lazımsız kağızları zibil qutusuna atacağam.

Aynur da söhbətə qarışdı:

– Mən də yerə saqqız atmayacağam. Eşitmişəm ki, quşlar onları yem bilib yeyirlər. Saqqız onların dimdiklərinə yapışır və quşlar ölürlər.

Azad bir az fikirləşib dilləndi:

– Mən dəftərimin bütün səhifələrini istifadə etməmiş yenisinə başlamayacağam.

Sevinc dilləndi:

– Nənəm gülləri sulayanda mən də kömək edəcəyəm.

Anar müəllim gülümsəyib dedi:

– Bəli, siz artıq “Təbiəti sevənlər” komandası yaratdınız! İndi bu komandanı genişləndirmək vaxtıdır. Bunun üçün isə başqalarına nümunə göstərməliyik.

Şagirdlər çox sevindilər. Həmin andan təbiəti qorumaq üçün tədbirlər planı hazırlamağa başladılar.

**C** **Mətndəki obrazların davranışlarından çıxış edərək uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| 1 *Ayxan* | a *Canlıların qayğısına qalacaq.* |
| 2 *Aynur* | b *Əşyalardan qənaətlə istifadə edəcək.* |
| 3 *Azad* | c *Təbiətə qayğı göstərəcək.* |
| 4 *Sevinc* | ç *Ətraf mühitə qayğı ilə yanaşacaq.* |

LAYİHƏ

**Ç** **Aşağıdakı cədvəl nümunəsinə uyğun olaraq təbiəti qorumaqla bağlı tədbirlər planı hazırlayın.**

| Tədbirin adı | Vaxt | İcraçılar |
|---|---|---|
| | | |

**D** **Göy rəngli cümlələrdə sonuncu sözləri bir daha oxuyun. Onların deyilişi ilə yazılışı arasında hansı fərq var?**

• Sözlərin yazılışı •

| Doğru | Yanlış |
|---|---|
| yazacağam | yazacam |
| edəcəyəm | edəcəm |

**6 A** **“Təbiəti sevənlər komandası” mətninin davamını şəkillər üzrə danışın.**




**B** **Mətnin davamını oxuyun. İdeyasını müəyyən edin.**

Bir gün səhər uşaqlar məktəbin həyətində toplaşmışdılar. Bu zaman məktəbin direktoru Sabir müəllim velosipedlə məktəb həyətinə daxil oldu. Uşaqlar gözlərinə inanmadılar.

Aynur sevinclə qışqırdı:

– Ura! Direktorumuz da komandamıza qoşulur.

Uşaqların sevincini görən Sabir müəllim gülümsədi:

– Hə, uşaqlar, məni də qəbul edirsiniz?

– Əlbəttə! – uşaqlar bir ağızdan qışqırdılar.




LAYİHƏ

Anar müəllimin və şagirdlərinin arzusu gerçəkləşirdi. Onların fəaliyyəti hər kəsin diqqətini çəkməyə başlamışdı. Digər sinifləri də bu fəaliyyətə qoşmağın vaxtı çatmışdı. Şagirdlər siniflərinə çatan kimi plakatlar hazırlamağa başladılar. Qısa vaxt ərzində bütün məktəb "Təbiəti sevənlər" komandasına qoşuldu.

*Eylen Spinellinin hekayəsi əsasında*

**C Cütlərlə iş** **"Təbiəti qoruyaq" mövzusuna uyğun şüarlar yazın.**

**7 A Aşağıdakı şəklə və dinləmə mətninə əsasən suallara cavab verin.**



**5 iyun**
**ÜMUMDÜNYA ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ GÜNÜ**

*1. Təbiətin çirklənməsinə nə səbəb olur?*
*2. Ətraf mühitin mühafizəsi günü nə vaxt qeyd olunur?*
*3. Ətraf mühitin mühafizəsi gününün əhəmiyyəti nədir?*

**B Sizcə, nə üçün Anar müəllimin şagirdləri plakat hazırlamaq qərarına gəldilər?**

**Faydalı məsləhət** **PLAKAT NƏDİR**

**Plakat insanları xeyirxah işlərə cəlb etmək üçün hazırlanır.**
Plakat tərtib edərkən aşağıdakılara diqqət etməliyik:
*1. Çağırış üçün şüar tərtib edirik.*
*2. İdeyamızı gücləndirmək üçün şəkillər seçirik.*
*3. Plakatı yerləşdirmək üçün uyğun məkan seçirik.*

**C Qruplarla iş** **Aşağıdakı mövzular üzrə plakatlar hazırlayın.**

*1-ci qrup: "Təbiəti qoruyanlar" komandasına çağırış.*
*2-ci qrup: Ətraf ərazini yaşıllaşdırma tədbirinə çağırış.*
*3-cü qrup: Ətraf ərazini zibillərdən təmizləmə tədbirinə çağırış.*

LAYİHƏ

fəsil 3

# YENİDƏN İSTİFADƏ

**1 A** **Şəkillərdəki şüarları oxuyun. Bu çağırışların mənasını izah edin.**




**B** **Mətni oxuyun. Baş qəhrəmanın hansı hisslər keçirdiyini müəyyən edin.**

## KÜRƏN PİŞİYİN ƏŞYALARI



Kürən yeni əşyalar almağı xoşlayır. O istəyir ki, bütün əşyaları təzə olsun – geyimi, oyuncaqları, velosipedi... Bir əşyası azacıq köhnələn kimi yaxınlıqdakı gölə tullayır və dərhal yenisini alır.

Kürən həmin göldə vaxt keçirməyi çox xoşlayır. Tez-tez ora balıq tutmağa gedir. Əslində, neçə vaxtdır ki, göldə balıq yoxa çıxıb. Ancaq bu, Kürənin vecinə deyil. Qayıqda oturub əlində tilov suya baxmaq ona ləzzət verir.

Bir dəfə Kürən həmişəki kimi qarmağı suya atıb gözləyirdi. Birdən qarmaq nəyəsə ilişdi. Bu nə idisə, çox ağır bir şey idi. Kürən tilovu dartdıqca qayıq ləngər vururdu. O həyəcanlandı:

– Aha, deyəsən, böyük balıq tutmuşam!

O, tilovu çəkdi. Suyun üzünə dəhşətli bir varlıq çıxdı. Vay, bu nədir?! Kürən indiyə kimi belə qorxulu şey görməmişdi.

– Kömək edin! Əcinnə! ···→

**• Söz boğçası •**

• tilov • qarmaq • əcinnə • ləngər vurmaq • təqib etmək • çömbəlmək • avar

LAYİHƏ

O, avarları bacardığı qədər sürətlə çəkməyə başladı. Lakin əcinnə onun qarmağına ilişmişdi. Nə qədər uzaqlaşmağa çalışırdısa, əcinnə dalınca gəlirdi.

Qorxunc əcinnə onu sahilə qədər təqib etdi. Qayığı sahilə çatan kimi qaçıb kolların arxasında gizləndi. Əlləri ilə başını tutdu, gözlərini yumdu və yerə çömbəldi. Var gücü ilə qışqırıb dostlarını səslədi:

– Yastıdaban!.. Çəpgöz!.. Ciy-ciy!..

**C** **Kürən dostlarını necə səslədi? Onun hərəkətlərini təkrar edin.**

**Ç** **Sizcə, göldə niyə bir dənə də olsun balıq qalmamışdı?**

**D** **Göy rənglə verilmiş suallara cavab verməklə cümlələri genişləndirin.**

*1. Kürən ... sevinirdi.* ⟵ *Nə zaman?*
*2. Kürən ... ləzzət alırdı.* ⟵ *Nədən?*
*3. Kürən ... həyəcanlandı.* ⟵ *Niyə?*
*4. Kürən ... qorxdu.* ⟵ *Nədən?*

**2 A** **Şəklə əsasən suallara cavab verin.**



- **Şəkil mətnin hansı hissəsinə uyğun gəlir?**
- **Sizcə, Kürənin qarmağına düşən nədir?**

**B** **Mətnin davamını oxuyun. Kürənin davranışına münasibət bildirin.**

Dostları səs eşidib təlaşla gölə yaxınlaşdılar. Amma kolun dalında gizlənmiş Kürəni görmədilər. Yastıdaban ayı dedi:

– Bu nə səs-küy idi?

Çəpgöz dovşan dilləndi:

– Deyəsən, kimsə bizi çağırırdı.

Ciy-ciy siçan ciyildədi:

– Hə, Kürənin səsinə oxşayırdı.

Birdən onlar gölün sahilində köhnə əşyalar qalağı gördülər.



LAYİHƏ

Yastıdaban dedi:
– Bu nərdivanı bir balaca təmir etsəm, işimə yarayar.
Çəpgöz dilləndi:
– Oho, bu çətirə bax! Demək olar, təzədir.
Ciy-ciy ciyildədi:
– Gör burada nə qədər stul var. İndi bütün ailəmlə birlikdə masa arxasında otura biləcəyəm.

Bu vaxt Kürən gizləndiyi yerdən başını uzadıb baxdı. Dostlarını görüb onları xəbərdar etmək üçün sahilə qaçdı:
– Ehtiyatlı olun! Orada əcinnə var!



O, sahilə çatıb ətrafa boylandı. Deyəsən, əcinnə getmişdi.
Ciy-ciy ona dedi:
– Bax, biz çoxlu əşyalar tapmışıq: stul, çaydan, çətir... Onları təmir edəcəyik. Sənin üçün də bəzi əşyalar saxlamışıq.
Kürən təəccübdən donub-qaldı:
– Aaaa, bunlar mənim köhnə əşyalarımdır!
O, fikirli-fikirli əşyalardan birini götürdü.
– Hm, mənim bir fikrim var, – deyib işə başladı.
O, köhnə əşyalarından çarpələng, araba, hətta balaca qayıq düzəltdi. Kürənin ixtiralarını görən hər kəsin ağzı açıq qalmışdı.
Artıq Kürən köhnəlmiş əşyalarını atmır, onlardan yeni əşyalar hazırlayır.

*Ceneviev Kote*



**• Söz boğçası •**
- qalaq
- yaramaq
- ağzı açıq qalmaq

**C** **Kürənin köhnə əşyalara münasibətini müqayisə edin.**
- mətnin əvvəlində
- mətnin sonunda

**Ç** **Mətnin mövzusunu və ideyasını müəyyən edin.**

LAYİHƏ

**D** **Obrazların hiss və həyəcanını ifadə etməklə cümlələri oxuyun. Fərqləndirilmiş sözlərə diqqət edin.**

*1. Aha, deyəsən, böyük balıq tutmuşam!*
*2. Vay, bu nədir?!*
*3. Oho, bu çətirə bax!*
*4. Aaa, bunlar mənim köhnə əşyalarımdır!*

**• Bunları bilməliyik •** **HİSS, HƏYƏCAN BİLDİRƏN SÖZLƏR**

Nida cümlələrində çox zaman hiss, həyəcan bildirən sözlər işlənir. Bu sözlərdən sonra vergül və ya nida işarəsi qoyulur.

Məsələn: ***Ah,*** *bu çiçəyin nə gözəl qoxusu var!*
***Paho!*** *Nə pis oldu, dərsə gecikdik.*

"***Ah***" heyranlıq, "***Paho***" təəssüf hissini ifadə edir.

**E** **Cütlərlə iş** **Nöqtələrin yerinə uyğun hiss, həyəcan bildirən sözü əlavə etməklə cümlələri oxuyun.**

| | |
|---|---|
| *Oy* | *1. ... lap yoruldum!* |
| *Of* | *2. ... axır ki, əlimə keçdin!* |
| *Eh* | *3. ... əlimə tikan batdı!* |
| *Aha* | *4. ... elə bildim, cavabı tapmısan!* |

**3 A** **Köhnəlmiş əşya və ya geyimlərdən nələr hazırlamaq olar?**

**B** **Mətni oxuyun. Təsvir olunan sənət nümunəsinin əsas xüsusiyyətlərini qeyd edin.**

### QƏDİM SƏNƏT NÜMUNƏSİ

Elə ev yoxdur ki, orada müxtəlif parçalardan köhnə geyimlər, yataq örtükləri olmasın. Çox zaman biz onları lazımsız əşya kimi atırıq.

Amma yüz illər öncə qadınlar köhnəlmiş və ya kiçik ölçüdə qalmış parçaları atmırdılar. Müxtəlifrəngli kiçik parçaları bir-birinə tikməklə müxtəlif əşyalar hazırlayırdılar.

Bir zamanlar qadınlar bunu qənaət məqsədilə edirdilər. Zaman keçdikcə bu məşğuliyyət bir sənət növü kimi inkişaf etməyə başladı.

LAYİHƏ

Həmin sənət nümunəsini “qurama” adlandırdılar. Sənətkarlar müxtəlif naxışlardan istifadə edərək çox gözəl quramalar yaradırdılar.

Hazırda qurama bir çox ölkələrdə geniş yayılmış sənət növüdür. Azərbaycanda qurama sənətinin qədim tarixi var. Bu sahədə mahir sənətkarlarımız çalışır. Quramadan müxtəlif məişət əşyalarının – yorğan-döşək üzünün, pərdələrin, çantaların, geyimlərin hazırlanmasında istifadə olunur. Bu növ tikmələrdə həndəsi naxışlardan çox istifadə edilir.



**• Söz boğçası •**

- qurama
- məişət
- tikmə

**C** **Qurama nümunələri parçadan hazırlanan digər əşyalardan nə ilə fərqlənir?**

**Ç** **Məişət əşyası və sənət nümunəsi arasındakı fərqi izah edin.**

**D** **Cütlərlə iş** **Aşağıdakı təlimata uyğun olaraq bir qurama nümunəsi hazırlayın.**

**• Təlimat •**

***Lazım olan əşyalar:*** *karandaş, karton, rəngli köhnə parçalar, yapışqan.*

***Hazırlanma qaydası:***

*1. Karton üzərində karandaşla müxtəlif formalı naxışlar çəkin.*

*2. Üçbucaq, kvadrat və digər həndəsi fiqurlar formasında kiçik parçalar kəsin.*

*3. Həmin rəngli parçaları naxışların üzərinə yapışdırın.*





LAYİHƏ

# Ümumiləşdirici təkrar

**4 A** **Mətni oxuyun. Hansı cümlə mətnin mövzusuna uyğun deyil? Mətnin ideyasını müəyyən edin.**

*Biz təbiətin kiçik bir parçasıyıq. Təbiəti sevməli və qorumalıyıq. Çünki sağlamlığımız, yaşayışımız onunla bağlıdır. Sağlam olmaq üçün idman etmək lazımdır. Gəlin hər birimiz təbiətə qayğı göstərək.*

**B** **Göy rənglə verilmiş sözlərdən uyğun gələnini seçməklə cümlələri oxuyun.**

*(Of / Aha) çantam necə ağırdır!*
*(Ah / Aha) nəhayət, tapdım sizi!*
*(Vay / Oho) deyəsən, açarı itirmişəm!*
*(Ay / Bəh-bəh) az qalmışdı, yıxılım!*
*(Eh / Oy) elə bildim, sən də gələcəksən!*

**C** **Müraciət bildirən sözü və buraxılmış vergül işarəsinin yerini müəyyən edin.**

*1. Uşaqlar fəal olun, vaxta az qalıb.*
*2. Bax Arif gör nə gözəl çərpələng hazırlamışam.*
*3. Mənə təşəkkürnamə verdilər ana.*
*4. Dostluğun qədrini bil oğlum.*
*5. Əziz qonaqlar ad günümdə iştirak etdiyiniz üçün çox sağ olun!*
*6. Durmayın dostlar qarşıda bizi böyük işlər gözləyir.*

**Ç** **Nöqtələrin yerinə mötərizədə verilmiş sözlərdən uyğun olanını seçin və cümlələri köçürün.**

*Mən bundan sonra təbiətin qayğısına ... (qalacam, qalacağam).*
*Mən babamla birlikdə ağac ... (əkəcəm, əkəcəyəm).*
*Mən dostlarımla birlikdə quşlara yuva ... (düzəldəcəm, düzəldəcəyəm).*
*Mən sabahdan başlayaraq hər gün kitab ... (oxuyacam, oxuyacağam).*

LAYİHƏ

# 2-ci sinifdə keçilənlərin təkrarı

**A** **Verilmiş sözləri cədvəl üzrə qruplaşdırın.**

*şirin, ağ, geniş, turş, əyri, dar, boz, balaca, dairəvi, kəmşirin, sarı*

| rəng | dad | ölçü | forma |
|---|---|---|---|
| | | | |

**B** **Cümlələrin fakt, yoxsa münasibət bildirdiyini müəyyənləşdirin.**

*1. Azərbaycan himninin bəstəkarı Üzeyir Hacıbəyovdur.*
*2. Biz bayrağımızla fəxr edirik.*
*3. Nağıl kitablarını daha çox sevirəm.*
*4. Kağız ağacdan hazırlanır.*

**C** **Cümlələri köçürün. Cümlənin əsasını (icraçını və hərəkəti) bildirən sözlərin altından xətt çəkin.**

*1. Balaca küçük həyətdəki evciyinə girdi.*
*2. Səməd qonşu həyətə keçdi.*
*3. Ağacdələn ağacı ziyankar həşəratlardan təmizləyir.*
*4. Bu gün sərin külək əsirdi.*

**Ç** **Hər bir sıradakı sözlərin ümumi mənasını müəyyən edin. İstədiyiniz bir sözü seçib mənasını izah edin.**

*1) qopuz, saz, tar, nağara*
*2) şəkərbura, tort, qoğal*
*3) pələng, ayı, şir, fil*

**D** **Hansı atalar sözlərində hərəkət bildirən söz inkar formada olmalıdır?**

*1. Sürüdən ayrılan qoyunu qurd yeyər.*
*2. Tək əldən səs çıxar.*
*3. Ot kökü üstə bitər.*
*4. Dost dar gündə tanınar.*
*5. Beş barmağın beşi də bir olar.*

LAYİHƏ

**E** **Düzgün yazılan sözü seçin.**

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. | a) *paləng* | b) *palənk* | 4. | a) *velosiped* | b) *velasipet* |
| 2. | a) *şokolad* | b) *şakalat* | 5. | a) *həfdə* | b) *həftə* |
| 3. | a) *zurafə* | b) *zürafə* | 6. | a) *mübahisə* | b) *mubahisə* |

**Ə** **Ahəng qanununa görə uyğun söz sırasını seçin.**

*1. İncə saitlərin ahəngi var.*
*2. Qalın saitlərin ahəngi var.*
*3. Ahəng qanunu pozulub.*

*a) oyunçu, yağışlı, toxucu*
*b) qaliblər, ailə, cəsarətli*
*c) ümidsiz, günəşli, gülçü*

**F** **Nəzakətli sözləri uyğun boşluqlara əlavə edib köçürün.**

*bağışlayın, zəhmət olmasa, təbrik edirəm*

*1. ..., pəncərəni bağlayın.*
*2. ..., qalib gəlmisən.*
*3. ..., sizə kömək edə bilmirəm.*

**G** **Sarı boşluqlara uyğun gələn durğu işarələrini əlavə etməklə mətni köçürün.**

## ÜÇ BACI

Ana qızları ilə bazara getmişdi. Ana dedi▢
▢Saçımı daramağa bir daraq alım.
Qızlar tez dilləndilər▢
▢Üç balaca daraq da bizə al.
Ana dedi▢
▢Darağımı, güzgümü qoymağa
bir çanta alım.
Qızlar dedilər▢
▢Üç dənə balacasını da bizə al.
Ana dedi▢
▢Döşəməni silməyə bir şotka alım.
Qızların heç birindən səs çıxmadı.

*Gülşən Orucova*



LAYİHƏ

*Qeyd: Dərslikdə verilmiş mətnlər dil və məzmun baxımından müvafiq yaş qrupuna uyğunlaşdırılmışdır.*
*Müəllifi göstərilməyən mətnlər dərslik müəllifləri tərəfindən yazılmışdır.*

BURAXILIŞ MƏLUMATI

---

*Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə*
***dərslik***
*(2-ci hissə)*

**Tərtibçi heyət**

| | |
|---|---|
| Müəlliflər | **Ülkər Nurullayeva**<br>**İradə Bayramova**<br>**Aysel Xanalıyeva**<br>**Könül Məhyəddinova** |
| Layihə rəhbəri | **Rafiq İsmayılov** |
| İxtisas redaktoru | **Rafiq İsmayılov** |
| Dil redaktoru | **Dilrüba Cəfərova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssam | **Elmir Məmmədov** |
| Korrektor | **Fəridə Ziyadova** |


**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2019-133)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8401-2-4

Hesab-nəşriyyat həcmi: 11,8. Fiziki çap vərəqi: 13.
Səhifə sayı: 104. Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^{1}/_{8}$.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ____. Tiraj: 4000. Pulsuz. Bakı – 2020.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 25.08.2020

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"Çaşıoğlu Eİ" MMC (Bakı ş. M.Müşfiq küç., 2 A).

LAYİHƏ

Pulsuz

LAYİHƏ